QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 167 (5887) **13 sentyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymətі 40 qəpik**

# Təhsilin inkişafına dövlət dəstəyi artırılır

*Prezident İlham Əliyev Bakının Suraxanı rayonundakı 101 nömrəli məktəbdə əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub*

Səh 3




5

Əli Həsənov: "Milli birlik, həmrəylik Azərbaycanın alternativsiz reallığıdır"



6

YAP və Çin Kommunist Partiyası arasında əlaqələrin 20 illiyi münasibətilə Pekində konfrans keçirilib




7

XİN: Fransa deputatlarının Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə qanunsuz səfərini qəti şəkildə pisləyirik



# Bakı Metropoliteninin "Xətai" stansiyası yenidənqurmadan sonra istifadəyə verilib

## *Prezident İlham Əliyev stansiyada yaradılan şəraitlə tanış olub*

***Bakı Metropoliteninin "Xətai" stansiyası əsaslı təmir və yenidənqurmadan sonra sentyabrın 12-də istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev stansiyada görülən işlərlə tanış olub.***

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, "Xətai" stansiyası 1968-ci ildə istismara verilib. Stansiyanın 50 ildən artıq istismar müddətində köhnələn, müasir dövrün tələblərinə cavab verməyən bütün infrastrukturunun yenilənməsi məqsədilə təmir mərhələlərlə aparılıb. 2014-cü ildə birinci mərhələdə stansiyanın platformasının orta zalı, stansiya yolu və "Xətai-Cəfər Cabbarlı" mənzilinin müvafiq tunelində əsaslı təmir və yenidənqurma tədbirlərinə başlanılıb. Bu dəfə aparılan yenidənqurmadan sonra "Xətai" stansiyası əsaslı yenilikləri ilə sərnişinlərin xidmətində olacaq. Stansiyanın infrastrukturu və görkəmi tamamilə yenilənib. Burada funksionallığı ilə seçilən 4 yeni müasir eskalator quraşdırılıb. Bakı Metropoliteninin ən dərin stansiyasında sərnişinlərin enib-qalxma təhlükəsizliyinin, təxliyə imkanlarının və rahatlığının artırılması, xidmət









səviyyəsinin daha da yüksəldilməsinə nail olunub.

Qeyd edildi ki, Bakı Metropolitenində müasir tipli qatarların sayı 11-ə çatdırılıb. Rusiyanın "Transmaşholdinq" Səhmdar Cəmiyyətinin tərkibinə daxil olan "Metrovaqonmaş" ASC 2019-cu ildə Bakı metropoliteni üçün 30 vaqondan ibarət 6 qatar tərkibi istehsal edib. Dörd qatar tərkibi iyul və avqust aylarının əvvəllərində xəttə buraxılıb. Dördüncü nəslə mənsub olan bu qatarlar ən müasir tələblər səviyyəsində istehsal edilib. Qatarların maksimal sürəti saatda 90 kilometrdir. Yeni vaqonların qapıları daha enlidir. Bu, sərnişinlərin vaqonlara daha rahat və sürətlə giriş-çıxışına imkan yaradır. Qatarlarda vaqonlararası birbaşa keçidin olması vaqonun sərnişin tutumunu 15 faiz artırır, sərnişinlərin qatar boyunca bərabər paylanmasını, yerləşmə sahəsini genişləndirməklə daşımanın rahatlığını və təhlükəsizliyini təmin edir. Vaqonlarda ayaq üstə dayanan sərnişinlər üçün çoxfunksiyalı zonalar, iri yüklər, uşaq arabaları üçün sahələr də ayrılıb, tutacaqlar xüsusi olaraq sərnişin sıxlığı nəzərə alınmaqla layihələndirilib. Qatarın baş vaqonu 38, orta vaqonu isə 44 oturacaqlıdır. Ümumilikdə, isə baş vaqonda 315, orta vaqonlarda isə 329 sərnişin mənzil başına çatdırılır. Vaqonlarda təzyiqin tənzimlənməsi və ultrabənövşəyi lampalarla havanın bioloji təmizlənməsi, həmçinin daxili və xarici videomüşahidə sistemləri də var. İşıqdiodlu cihazların tətbiqi isə elektrik enerjisi sərfiyyatını 50 faiz azaldır, onların istismar müddətini 75 faiz artırır. Vaqonların istismar müddəti 30 ildir.



Stansiyada aparılan əsaslı təmir və yenidənqurma zamanı giriş vestibülü və platformanın orta zalının divarında Şah İsmayıl Xətai və onun yaradıcılığına həsr olunmuş bədii-memarlıq kompozisiyaları da bərpa olunub. Eskalatorların maşın zalı da əsaslı təmir edilib, stansiyanın digər infrastrukturunun yenilənməsi tədbirləri görülüb. Təmir dövründə platforma, platformaaltı sahə, stansiya yolu və yol mənzillərində hələ 2014-cü ildə başlanmış əsaslı işlər də başa çatdırılıb, tunel yenidən təftiş olunaraq, bütün dəmir beton konstruksiyalar gücləndirilib və ya yenidən qurulub. Bakı Metropoliteni tarixində ilk dəfə stansiya yolu ən müasir dəmir-beton bloklardan qurulub. Bu məqsədlə köhnə yol yatağı tamamilə sökülüb, dəmir-beton blokların quraşdırılması üçün yenidən layihələndirilib. Stansiyada bütün kommunikasiya xətlərinin, avadanlıqların yenilənməsi ilə bağlı mühüm işlər görülüb, hərəkətin təşkili, idarə olunması və tənzimlənməsində əhəmiyyət kəsb edən mərkəzləşmə məntəqəsi və stansiya növbətçisinin otaqları yenidən qurulub, eskalatorların nəzarətçi köşkü videogörüntülərlə təmin edilib. Stansiyada İKT-nin imkanlarından geniş istifadə olunacaq.

Dövlətimizin başçısına Bakı Metropoliteninin əsaslı şəkildə yenidən qurulan Təlim-Tədris Mərkəzi barədə də məlumat verildi.

Prezident İlham Əliyevin imzaladığı Sərəncamla təsdiq olunan Dövlət Proqramına əsasən Bakı Metropoliteni stansiyalarının yenidən qurulması, infrastrukturun müasir standartların tələbləri səviyyəsinə çatdırılması işləri planlı şəkildə aparılır. Bütün bunlar isə paytaxtın nəqliyyat sisteminin mühüm elementi olan Bakı metrosunun sürətlə inkişaf etməsinə böyük töhfə verir.

# Təhsilin inkişafına dövlət dəstəyi artırılır

## Prezident İlham Əliyev Bakının Suraxanı rayonundakı 101 nömrəli məktəbdə əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakının Suraxanı rayonundakı 101 nömrəli orta məktəbdə aparılan təmir-tikinti və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub. AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və məktəbin direktoru Səidə Məmmədova görülən işlərlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdilər.***







Bildirildi ki, 101 nömrəli tam orta məktəbin binası 1937-ci ildə tikilib. O zaman 400 şagird yerlik üçmərtəbəli korpus istifadəyə verilib. 1960-cı ildə isə 4 sinifdən ibarət yardımçı korpus tikilib. 2012-2013-cü illərdə 20 sinif otağından ibarət əlavə 400 yerlik bina istifadəyə verilib. Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramına əsasən bu ilin may ayında təhsil ocağının 1937-ci ildə istifadəyə verilən binası sökülərək yerində 360 yerlik 15 sinif otağından ibarət əlavə korpusunun tikintisinə başlanıb. İnşaat işləri yüksək səviyyədə həyata keçirilib. Bundan sonra məktəbdə birnövbəli sistemdə 985 şagird təhsil alacaq. Şagirdlərin təlim-tərbiyəsi ilə 62 müəllim məşğul olur.

Diqqətə çatdırıldı ki, məktəbdə 35 sinif otağı, informatika kabineti, laboratoriya, idman və akt zalları, hərbi otaq və yeməkxana var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Məktəbdə internet, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir.

Məlumat verildi ki, məktəbin şagird və məzunları müxtəlif beynəlxalq bilik və idman yarışlarında, olimpiadalarda mühüm uğurlara imza atıblar. Bu təhsil ocağının məzunları ali məktəbə qəbul imtahanlarında yüksək nəticələri ilə seçilirlər. 2019-cu ilin statistikasına görə, məktəbi bitirən məzunların 80 faizi tələbə adını qazanıb.

Məktəbin həyətində geniş abadlıq və quruculuq işləri görülüb. Həyətdə futbol və voleybol meydançaları yaradılıb.

Dövlətimizin başçısı İlham Əliyev məktəbin direktoru Səidə Məmmədova ilə söhbət etdi.

Prezident İlham Əliyev: Açıq futbol meydançası da var. Gözəl şərait yaradılıb. Sizi təbrik edirəm.

Səidə Məmmədova: Mən Sizə və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevaya təşəkkür edirəm. Bizim üçün belə bir müasir məktəb tikdirmisiniz. Sağ olun, var olun.

Prezident İlham Əliyev: Sağ olun.

X X X

Qeyd edək ki, Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı qəbul edilən xüsusi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq bütün sosial sahələrdə olduğu kimi, təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması, yeni məktəb binalarının, uşaq bağçalarının inşası prosesi də məqsədyönlü şəkildə uğurla həyata keçirilir. Paytaxt və ətraf qəsəbələrlə yanaşı, respublikanın hər yerində orta məktəb binaları yüksək standartlara uyğun şəkildə yenidən qurulur, lazımi avadanlıqla təchiz edilir, təhsil müəssisələrinin ərazilərində abadlıq işləri həyata keçirilir. Təhsil sahəsində görülən bütün bu işlər Azərbaycanda insan kapitalının daha da inkişaf etdirilməsi məqsədinə xidmət edir.

# Azərbaycan-Avropa Şurası əməkdaşlığı genişlənir

## Prezident İlham Əliyev AŞPA-nın prezidentini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Avropa Şurası Parlament Assambleyasının (AŞPA) prezidenti xanım Lilian Mori Paskieni qəbul edib. AZƏRTAC xəbər verir ki, söhbət zamanı AŞPA prezidenti xanım Lilian Mori Paskienin Azərbaycanla tanışlığının, müxtəlif səviyyələrdə keçirilən görüşlərin və aparılan müzakirələrin əlaqələrimizin inkişaf etdirilməsi üçün yaxşı imkanlar yaratdığı qeyd olundu.

Görüşdə bu il Avropa Şurasının təsis edilməsinin 70 illiyinin qeyd olunduğu və bu çərçivədə keçirilən tədbirlərin önəmi vurğulandı. Söhbət zamanı Azərbaycan-Avropa Şurası əməkdaşlığının müxtəlif aspektləri geniş müzakirə edildi, Azərbaycanın Avropa Şurası çərçivəsində mövcud olan konvensiyalara qoşulması və bu istiqamətdə ölkəmizin qanunvericiliyinin uyğunlaşdırılması məsələlərinə toxunuldu.

Görüşdə Azərbaycanda insan haqlarının qorunması, demokratik inkişafla bağlı məsələlər müzakirə edildi. Söhbət zamanı Avropa Şurasının gündəliyində duran və qarşılıqlı maraq doğuran məsələlərə dair ətraflı fikir mübadiləsi aparıldı.

## Rəsmi xronika

Prezident İlham Əliyev Şamaxı rayonunda baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, baş vermiş zəlzələ nəticəsində Şamaxı rayonunda yaşayış evlərinə dəymiş ziyanın aradan qaldırılması işlərinin davam etdirilməsi məqsədilə həmin evlərin təmiri üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 2 milyon manat Şamaxı Rayon İcra Hakimiyyətinə ayrılsın.

Maliyyə Nazirliyinə tapşırılır ki, bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin. Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

# Bakıda Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının illik toplantısı keçirilir






**Sentyabrın 12-də Bakıda Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının illik toplantısı öz işinə başlayıb.**

AZƏRTAC xəbər verir ki, iki gün davam edəcək tədbirdə Asiya, Avropa və Afrikanın 20-yə yaxın ölkəsindən nümayəndələr, BMT, Avropa Şurası kimi beynəlxalq təşkilatların, o cümlədən yerli media qurumlarının rəhbərləri və ekspertlər iştirak edirlər.

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov bildirib ki, Ümumdünya Mətbuat Şuraları Assosiasiyası 1992-ci ildə yaradılıb. ABŞ-ın bir sıra ştatlarının, Türkiyə, Hindistan, Pakistan, Banqladeş, Nepal, Zimbabve, Keniya və digər ölkələrin jurnalistləri belə bir qurum yaradıblar. O vaxtdan indiyədək quruma üzv ölkələrdə tədbirlər keçirilir və jurnalistlərin qarşılaşdığı problemlər, informasiya əldə etmələri ilə bağlı yaranmış çətinliklərin aradan qaldırılması ilə bağlı təkliflər səsləndirilir. Ümumilikdə toplantıda dünyada medianın inkişaf meyilləri müzakirə olunur.

Mətbuat Şurasının sədri Azərbaycanda media sahəsində əldə edilən uğurlar barədə danışıb. Bildirib ki, 1998-ci ildə ölkəmizdə senzura ləğv edilib, kütləvi informasiya vasitələri ilə bağlı qanunvericilik bazası təkmilləşdirilib, media tam müstəqildir. Azərbaycanda internet media da fəaliyyətini uğurla davam etdirir. Ölkəmizdə 3 milyona yaxın insan sosial şəbəkədən istifadə edir. Azərbaycanda etnik qruplar sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Media da bu istiqamətdə dövlət siyasətini dəstəkləyir.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov tədbirdə çıxış edib. Dünya Mətbuat Şuraları Assosiasiyasının Bakı toplantısının iştirakçılarını Prezident İlham Əliyev və hökumətimiz adından salamlayan Əli Həsənov deyib ki, Azərbaycan milli mətbuatı və digər kütləvi informasiya vasitələri yüz ildən artıq bir tarix çərçivəsində müxtəlif inkişaf mərhələlərini keçərək ictimai həyatımızın ayrılmaz tərkib hissəsinə və vətəndaş cəmiyyətinin hərəkətverici qüvvələrindən birinə çevrilib. 1991-ci ildə müstəqilliyini yenidən bərpa etdikdən sonra - 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Yeni Konstitusiyasında fikir və söz azadlığının əsas insan hüquqları sırasında öz əksini tapması KİV-in inkişafında yeni tarixi mərhələnin bünövrəsini qoyub. Prezident Heydər Əliyevin 1998-ci il avqustun 6-da imzaladığı Fərmanla KİV üzərində senzuranın ləğv edilməsi, kənar təsir olmadan özünütənzimləyən azad medianın yaradılması üçün ölkəmizdə geniş perspektivlər açıldı. Sonrakı dövrdə kütləvi informasiya vasitələri, informasiyanın əldə olunması, milli teleradio yayımı, ictimai televiziya, informasiya azadlığı və digər sahələrlə bağlı yeni qanunların qəbul olunması KİV-in inkişafını təmin edən zəruri qanunvericilik bazası kimi çıxış etdi.

Ötən 25 ildə ölkəmizdə kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan mühüm addımları xatırladan Əli Həsənov qeyd edib ki, Azərbaycan Prezidentinin sərəncamları ilə 1998-ci ilin sonunda yerli KİV-lər əlavə dəyər vergisindən azad edilib, ölkəyə gətirilən çap məmulatlarına tətbiq edilən gömrük rüsumları ləğv olunub, media vasitələrinin dövlətə olan borcları silinib və əlavə olaraq onlara uzunmüddətli və güzəştli kreditlərin verilməsi işi təmin edilib.

Əli Həsənov bildirib ki, ölkəmizdə KİV-lərin, xüsusən də yazılı medianın inkişafına mühüm təsir göstərən əsas addımlardan biri də 2008-ci il iyulun 30-da Azərbaycan Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın qəbul edilməsi və həmin sənədin tələblərinə uyğun olaraq 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) yaradılması olub. 2009-cu ildən başlayaraq KİV layihələrinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən mediaya və jurnalistlərin ehtiyacı üçün on milyonlarla manat vəsait ayrılıb. Bundan başqa, Azərbaycan Prezidentinin sərəncamları ilə jurnalistlər üçün çoxmənzilli iki yaşayış binası tikilib istifadəyə verilib, üçüncünün tikintisi isə hazırda davam edir. 2000-ci ildən Azərbaycan milli mətbuatının yubileyləri mütəmadi olaraq dövlət səviyyəsində qeyd olunur. 2005-ci, 2010-cu, 2015-ci və 2016-cı illərdə yüzlərlə jurnalist fəxri ad və dövlət mükafatları ilə təltif olunub. Bütün bunlar ölkənin informasiya tələbatının tam ödənilməsi üçün KİV-in fəaliyyətinə böyük stimul verib. Hazırda Azərbaycanda rəsmi qeydiyyatdan keçmiş KİV-lərin ümumi sayı 5000-dən çoxdur. KİV-lərin kəmiyyət göstəricilərinə görə Azərbaycan MDB və Şərqi Avropa ölkələri arasında birincilər sırasındadır. Ölkədə 40-dək gündəlik, 200-dən çox həftəlik və aylıq qəzet-jurnal və digər media nümunələri nəşr olunur. 300-ə yaxın xəbər və analitik internet saytı, 20-yə yaxın informasiya agentliyi, rayonlarda və bölgələrdə isə 100-ə yaxın KİV fəaliyyət göstərir. Ölkəmizdə 11 ümumrespublika, 4 peyk, 17 kabel, 25 internet televiziyası və 13 regional televiziya, 14 radio fəaliyyətdədir. 2005-ci ildə Azərbaycanda İctimai Televiziya və Radio Yayımları Şirkəti təsis edilib və hazırda uğurla fəaliyyət göstərir. Bu gün Azərbaycanda 50-dən artıq jurnalist təşkilatı qeydə alınıb, 30-dək təşkilat söz və məlumat azadlığının, mətbuatın iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin hüquqlarının müdafiəsi, cəmiyyətlə media arasında münasibətlərin tənzimlənməsi və digər məsələlərlə fəal məşğul olur. Mətbuat yayımını həyata keçirən müstəqil kommersiya şirkətlərinin sayı 23-ə çatıb.

Azərbaycanda internet və sosial şəbəkələrin fəaliyyəti haqqında məlumat verən Əli Həsənov diqqətə çatdırıb ki, hazırda ölkəmizdə internet istifadəçilərinin sayı ümumi əhalinin 80 faizindən çoxdur və bu göstəricilərə görə Azərbaycan dünya ölkələri arasında birinci sıralarda bərqərar olub. Az. domenində qeydiyyatdan keçən internet saytlarının sayı 20 mini ötüb. Bununla yanaşı, Azərbaycanda azad sözə və fikrə dövlət səviyyəsində yüksək əhəmiyyət verilməsinin nəticəsidir ki, transmilli media qurumlarının ölkə ərazisində verilişlərinin yayılmasına heç bir məhdudiyyət yoxdur, eyni zamanda, vətəndaşların "Facebook", "Twitter", "Youtube", "İnstaqram" kimi sosial şəbəkələrə sərbəst çıxışı təmin edilib. Ölkədə sosial şəbəkə istifadəçilərinin sayı 3 milyon nəfərdən artıqdır ki, bu da cəmi 10 milyon əhalisi olan Azərbaycan üçün çox böyük göstəricidir. Sosial şəbəkələrə dövlət səviyyəsində verilən əhəmiyyətin göstəricilərindən biri də odur ki, Azərbaycan Prezidenti İlham Əliyevin və əksər dövlət qurumlarının, ayrı-ayrı vəzifəli şəxslərin rəsmi sosial profilləri fəaliyyət göstərir. Hakimiyyət sosial şəbəkələrdə qaldırılan məsələlərə mütəmadi olaraq öz münasibətini bildirir, internetə məlumat mənbələrindən biri kimi yanaşır və ondan istifadə edir.

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi deyib ki, son illərdə sosial şəbəkələr ictimai rəyin formalaşmasına təsir imkanlarını artırmağa çalışır. Lakin burada bir məqamı qeyd etməliyik ki, sosial şəbəkələrin rolunu müsbət xarakterizə edən cəhətlərlə yanaşı, mənfi meyillər də özünü göstərir. Sosial şəbəkələrin meydana gəlməsi bir tərəfdən söz və öz fikrini ifadə etmək azadlığının təmin olunmasında yeni perspektivlər açır. Digər tərəfdən, sosial şəbəkələrlə insan hüquqları arasındakı qarşılıqlı təsir bəzən xoşagəlməz vəziyyət yaradır. Məsələn, sosial şəbəkələrdə insanların şərəf və ləyaqətinin alçaldılması halları baş verir ki, bu da insan hüquqlarının pozulması deməkdir. Təəssüf ki, bu cür mənfi hallar bəzən transmilli medianın fəaliyyətində də özünü göstərir. Transmilli media qurumlarının verilişlərinin ölkədə yayılmasının müsbət cəhəti bundan ibarətdir ki, əhali dünyada baş verən proseslərlə bağlı operativ məlumatlar əldə etmək imkanı qazanır. Burada özünü göstərən mənfi xüsusiyyət isə ondadır ki, bəzən müxtəlif siyasi dairələrin və yaxud lobbi qruplarının təsiri ilə transmilli media qurumları ictimai rəyi manipulyasiyaya məruz qoymağa çalışır, obyektivlik və bitərəflik kimi prinsiplərə zidd olaraq qərəzli, subyektiv informasiyalar yayır.

Əli Həsənov çıxışını aşağıdakı fikirlərlə tamamlayıb: "Azərbaycan hakimiyyəti hazırda söz və mətbuat azadlığının, KİV-in inkişafının təmin edilməsini dövlət siyasətinin əsas istiqamətlərindən biri hesab edir. Azərbaycan dünyanın və bölgəmizin azsaylı ölkələrindəndir ki, hələ 1998-ci ildə mətbuat və informasiya nazirliyini ləğv edib və mətbuatın dövlət tənzimlənməsindən birmənalı şəkildə imtina edib. Azərbaycan dövləti bu işi hazırda ölkə jurnalistlərinin öhdəsinə buraxıb ki, onlar da öz ümumi toplantılarında jurnalistlərin vahid ictimai təşkilatı olan Mətbuat Şurasını yaradıblar. KİV-lərin fəaliyyətinin dəstəklənməsi və siyasi plüralizmin genişləndirilməsi siyasətini də biz məhz yaratdığımız KİVDF fondu, o cümlədən Mətbuat Şurası vasitəsilə həyata keçirməyə çalışırıq. Mətbuat Şurası bu istiqamətdə dövlətin əsas tərəfdaşıdır. Ölkə jurnalistlərinin ictimai maraqlarının yeganə təminatçısı kimi çıxış edən bu qurum uğurlu fəaliyyət göstərir və bugünkü möhtəşəm toplantı da bunun əyani sübutudur. Dünya ölkələrini təmsil edən əksər Mətbuat Şuralarını Bakıya toplamaq və milli-transmilli jurnalistikanın, azad medianın problem və uğurlarını müzakirə etmək bacarığı bunun göstəricisidir.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral deyib ki, qardaş ölkələr olan Türkiyə və Azərbaycan mədəniyyət, tarix baxımından bir millət, iki dövlətdir. Türkiyə və Azərbaycanın həyata keçirdiyi beynəlxalq layihələrlə qürur duyuruq və bu prosesi davam etdirməkdə israrlıyıq.

Səfir qeyd edib ki, Türkiyə Azərbaycanın ən böyük problemi olan Dağlıq Qarabağ məsələsinin tez bir zamanda həllini vacib sayır. Xocalıda yüzlərlə insanı qətlə yetirən ermənilər Türkiyəni soyqırımı törətməkdə ittiham edirlər. Bütün bu qarayaxmalara qarşı gerçəkləri dünyaya göstərmək Türkiyə və Azərbaycan mediasının üzərinə düşən ən böyük vəzifələrdən biridir.

BMT-nin Qlobal Kommunikasiyalar Departamentinin Azərbaycan üzrə təmsilçisi Rəşad Hüseynov, Avropa Şurasının Bakı ofisinin nümayəndəsi Pərvanə Bayramova və digər çıxış edənlər Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının yaranma tarixindən və fəaliyyətindən, eləcə də müasir medianın üzləşdiyi problemlərdən və qarşısında duran vəzifələrdən bəhs ediblər. Toplantı sentyabrın 13-də işini plenar sessiyalarla davam etdirəcək.

## Əli Həsənov: "Milli birlik, həmrəylik Azərbaycanın alternativsiz reallığıdır"



Azərbaycanda 1993-cü ildən milli birlik - vətəndaş həmrəyliyi siyasəti yürüdülür. Siyasi partiyalar cəmiyyətin institutlarıdır. Azərbaycan iqtidarı ilə cəmiyyətin digər təmsilçiləri - qeyri-hökumət təşkilatlarının, media və siyasi partiya nümayəndələrinin ünsiyyəti bütün dövrlərdə aktual olub. Biz milli birliyi, həmrəyliyi Azərbaycanın alternativsiz reallığı kimi dəyərləndiririk. Milli birliyin, həmrəyliyin alternativini görmürük.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov sentyabrın 12-də Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının Bakıda keçirilən illik toplantısında jurnalistlərə müsahibəsində deyib.

Dialoqun əksinin qarşıdurma və qeyri-qanuni mübarizə olduğunu bildirən Əli Həsənov deyib: "Biz dialoqu yüksək dəyərləndiririk, istənilən halda Azərbaycan cəmiyyəti üçün dialoq həmişə aktualdır. Sentyabrın 11-də belə bir tədbir keçirilib. Düşünürəm ki, siyasi partiyalar, media və qeyri-hökumət təşkilatları bu istiqamətdə fəaliyyətlərini məhdudlaşdırmayacaqlar. Gələcəkdə həm daxili, həm xarici siyasətlə bağlı dialoq masası arxasında müzakirələr aparıla bilər".

Siyasi mübarizəsini söyüş üzərində quran bəzi insanların fəaliyyətinə münasibət bildirən Əli Həsənov vurğulayıb ki, söyüş və təhqirdən istifadə edənlərə müxalifət demək olmaz. "İnsanlar var ki, Azərbaycanı müxtəlif səbəblərə görə tərk edib, xarici ölkədə özünə bir vasitə ilə sığınacaq tapıblar. Təəssüflər olsun ki, onlar anti-Azərbaycan dairələrinin əlində alətə çevriliblər. Anti-Azərbaycan dairələrinin maliyyələşməsində erməni fondları da iştirak edir. Xarici ölkələrdə onlardan Azərbaycana qarşı çirkin formada istifadə edirlər. Bu, Azərbaycan millətinin adına ləkədir. Düşünürəm ki, onlar nə vaxtsa Azərbaycan xalqına məxsus dəyər nümayiş etdirərək bu yoldan çəkinəcəklər",-deyə Prezidentin köməkçisi bildirib.

## Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, sentyabrın 12-də Quba, Cəlilabad, Qəbələ, Beyləqan və Cəbrayıl rayonlarının sakinləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib, bütün məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlar verilib. Bəzi müraciətlər yerindəcə həll edilib. Araşdırılma tələb edən müraciətlər nəzarətə götürülüb və onların həlli istiqamətində aidiyyəti üzrə göstərişlər verilib.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlmiş bu tədbirlər bir daha təsdiqləyir ki, dövlətimizin başçısının həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son vaxtlar sosial-iqtisadi sahədə aparılan əsaslı islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlərin davamıdır.

Diqqətə çatdırılıb ki, Azərbaycanda sosial-iqtisadi sahədə inqilabi islahatlar həyata keçirilməkdədir. Bu islahatlar, ilk növbədə, əhalinin rifah halının yaxşılaşdırılmasına, vətəndaş məmnunluğuna yönəlib. Prezident İlham Əliyev hələ 2018-ci ilin sonlarında bəyan etmişdi ki, qarşıdakı dövrdə əhalinin sosial durumunun daha da yaxşılaşdırılması prioritet olacaq. Bu məqsədlə 2019-cu ilin əvvəlində dövlətimizin başçısı iki böyük sosial islahat paketini təsdiqlədi. Birinci paketdə 3 milyon vətəndaşın maaş, pensiya, sosial müavinətlərinin artırılmasına, mühüm sosial məsələlərin həllinə 1,6 milyard manat yönəldildi və icra olundu. İkinci paketin icrası ilə bağlı hazırlıq işləri də tamamlanıb və sentyabrın 1-dən minimum əməkhaqqı 250 manata çatdırılıb, əlavə olaraq 400 min nəfərin maaşı 20-50 faiz artırılıb. Oktyabrın 1-dən isə pensiyaların artımı 750 min nəfərə şamil olunacaq. Hər iki paketin ümumi məbləği cari il üçün 2,3 milyard manat, gələn il üçün isə daha 3 milyard manat təşkil edir. Bu iki sosial islahat paketi, ümumilikdə, 4,2 milyon vətəndaşı əhatə edəcək. Minimum pensiya 72 faiz artırılıb. Beləliklə, ölkəmiz minimal pensiya üzrə alıcılıq qabiliyyətinə görə MDB-də birinci olacaq. Minimum əməkhaqqının 250 manata çatdırılmasından sonra Azərbaycan bu göstərici üzrə MDB-də ikinci sırada qərarlaşıb.

Bundan başqa, müavinətlərin və təqaüdlərin artırılması 300 min əlilliyi olan şəxsi, 500 min məcburi köçkünü, 100 mindən çox tələbəni, ümumilikdə, 1,3 milyon insanı əhatə edir. Ən əsası, bu addımlar aztəminatlı təbəqəni əhatə etməklə yanaşı, həmin kateqoriyaya aid olan insanların sosial durumunu əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.

Azərbaycan Prezidentinin digər təşəbbüsü sosial sığorta sahəsində inqilabi irəliləyişi təmin edib. Belə ki, 2006-2018-ci illərdə sığortaya hətta cüzi məbləğ ödəyənlərə belə 25 illik sığorta stajı hesablanıb. Bunun nəticəsində yanvarın 1-dən heç bir bürokratik əngəl olmadan 13 min nəfərə pensiya təyin olunub. İl ərzində pensiyaya çıxan vətəndaşların 80 faizi də bundan yararlana biləcək.

Keçirilən görüşlərdə, həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulmasının, insanlara layiqli xidmət göstərilməsinin, etik davranış qaydalarına əməl olunmasının vacibliyi vurğulanıb. Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün yaradılan rahat və əlverişli şəraitdən razılıqlarını ifadə edib, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

## "Azərbaycan Rusiya ilə əlaqələrin dərinləşməsinə böyük önəm verir"



Sentyabrın 12-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Sverdlovsk vilayətinin Qanunvericilik Məclisinin Sədri Lyudmıla Babuşkinanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Milli Məclisin Sədri Azərbaycanın Rusiya ilə əlaqələrin dərinləşməsinə böyük önəm verdiyini söyləyib. O, qarşılıqlı əməkdaşlıq istiqamətində ötən dövr ərzində xeyli işlər görüldüyünü bildirib. Vurğulayıb ki, ölkələr arasında iqtisadi, mədəni, elm, təhsil, sosial və müxtəlif istiqamətlərdə əməkdaşlıq əlaqələri inkişaf edir.

Lyudmıla Babuşkina Sverdlovsk vilayəti Qanunvericilik Məclisinin Azərbaycan parlamenti ilə əməkdaşlığından danışıb. Qonaq Rusiya-Azərbaycan münasibətlərinin artan templə davam etdiyini deyib. Söhbət tərəfləri maraqlandıran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

## Naxçıvan Ali Məclisində görüş keçirilib

Sentyabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İsveçrə Konfederasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Muriel Peneveyre ilə görüşüb.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri qonağı salamlayıb, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İsveçrə Konfederasiyası arasındakı əlaqələrə diqqəti çəkib. Birgə əməkdaşlığın nəticəsi kimi muxtar respublikada kəhrizlərin bərpası layihəsindən danışan Ali Məclisin Sədri 2011-ci ildə İsveçrə Konfederasiyasının o zamankı Prezidenti xanım Mişelin Kalmi-Reyin Naxçıvana səfərini xatırladıb.

İsveçrə şirkəti tərəfindən Naxçıvanda Günəş elektrik stansiyasının qurulduğunu, eləcə də bir sıra beynəlxalq tədbirlərin keçirildiyini qeyd edən Ali Məclisin Sədri əminliyini bildirib ki, xanım Muriel Peneveyrenin səfəri də əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəkdir.

Diplomatik fəaliyyəti müddətində ilk rəsmi səfərini Naxçıvan Muxtar Respublikasına etdiyini bildirən xanım Muriel Peneveyre göstərilən diqqətə görə minnətdarlıq edib. Səfir qarşılıqlı əlaqələrin əhəmiyyətinə toxunub, əməkdaşlığın daha da genişləndirilməsində səylərin artırılacağını bildirib. İsveçrə Əməkdaşlıq Ofisinin Cənubi Qafqaz üzrə regional direktor müavini xanım Simon Hayberli görüşdə iştirak edib.

## Yuri Borisov: "Rusiya Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasını istəyir"



Rusiya Baş Nazirinin müavini Yuri Borisov Ermənistanın paytaxtı Yerevanda keçirilən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) hərbi-iqtisadi əməkdaşlıq üzrə Dövlətlərarası komissiyasının iclasından sonra jurnalistlərə müsahibəsində deyib ki, "Rusiya Dağlıq Qarabağ münaqişəsinin alovlanmasında maraqlı deyil".

"Sputnik" agentliyi xəbər verir ki, Moskvanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması tərəfdarı olduğunu vurğulayan Y.Borisov diqqətə çatdırıb ki, Rusiya Prezidenti Vladimir Putinin bu istiqamətdə səyləri hamıya məlumdur. "Rusiya bütün vasitələrlə bu münaqişənin aradan qaldırılmasını istəyir. Siz Rusiyanın, xüsusən bizim Prezidentin bu məsələdə oynadığı rolu bilirsiniz", -deyə Baş Nazirin müavini qeyd edib. Erməni jurnalistlərin KTMT-nin Azərbaycanla bağlı mövqeyi barədə suala cavab verən Y.Borisov əlavə edib ki, "Rusiya keçmiş SSRİ-nin bütün respublikaları, o cümlədən Azərbaycanla hərbi-iqtisadi əməkdaşlığı alqışlayır".

# YAP və Çin Kommunist Partiyası arasında əlaqələrin 20 illiyi münasibətilə Pekində konfrans keçirilib

***Çinin paytaxtı Pekində Yeni Azərbaycan Partiyası (YAP) və Çin Kommunist Partiyası (ÇKP) arasında əlaqələrin qurulmasının 20 illiyi münasibətilə konfrans keçirilib.***




AZƏRTAC xəbər verir ki, YAP ilə ÇKP arasında dövlət idarəçiliyi sahəsində təcrübə mübadiləsinə dair "Xalqların rifahı naminə" mövzusunda keçirilən konfransda çıxış edən ÇKP-nin beynəlxalq əlaqələr şöbəsinin nazir statusunda rəhbəri Sun Tao hər iki ölkədə uzun illərdir hakimiyyətdə olan Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyasının səmimi dostluq və etibarlı tərəfdaşlıq əlaqələrinin olduğunu deyib. Ötən 20 ildə iki partiya arasında sıx təmaslar qurulub, qarşılıqlı səfərlər həyata keçirilib, təcrübə mübadiləsi aparılıb.

"İki partiya arasında əməkdaşlıq hazırda davamlı inkişaf edərək möhkəmlənir. Bu gün biz dövlət idarəçiliyi sahəsində təcrübə mübadiləsi aparmaqla, təntənəli şəkildə münasibətlərimizin 20 illiyini qeyd edirik. Qarşılıqlı səfərlər bu əməkdaşlığın möhkəmlənməsində xüsusi rol oynayır. Tarix göstərir ki, iki partiya arasında yaxınlaşma, əməkdaşlığın dərinləşməsi dövlət başçılarının iradəsi sayəsində mümkün olub. Hər iki partiya xalqa söykənərək, dövlətin inkişafı üçün çalışır", - deyə Sun Tao bildirib.









O təmsil etdiyi partiyanın Çin dövlətinin inkişafı, xalqın rifah halının yüksəlməsi istiqamətində gördüyü işlərdən danışıb, ötən 70 ildə Çin Xalq Respublikasının Kommunist Partiyasının idarəçiliyi ilə əldə etdiyi uğurlardan danışıb.

Sun Tao Çin Kommunist Partiyasının yaxşı dost və tərəfdaş kimi Yeni Azərbaycan Partiyasının dövlət idarəçiliyi konsepsiyasını yüksək qiymətləndirdiyini deyib. Görkəmli dövlət xadimi Heydər Əliyevin və Prezident İlham Əliyevin lideri olduğu Yeni Azərbaycan Partiyası ölkənin inkişafı üçün siyasi və iqtisadi islahatlar aparıb. Biz YAP-ın bu istiqamətdə qazandığı uğurlara sevinirik. Tarixi İpək Yolu Çin və Azərbaycana sarsılmaz dostluq əlaqələri bəxş edib. Müasir dövrdə isə "Bir kəmər, bir yol" təşəbbüsünün həyata keçirilməsində ölkələrimiz sıx əməkdaşlıq edir.

YAP Siyasi Şurasının üzvü, Milli Məclisin komitə sədri Hadi Rəcəbli Azərbaycanın Çin Xalq Respublikası ilə ikitərəfli münasibətlərə xüsusi əhəmiyyət verdiyini, əlaqələrin bütün sahələrdə dərinləşməsində və genişlənməsində maraqlı olduğunu deyib.

Yeni Azərbaycan Partiyasının banisi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1994-cü ilin martında ÇXR-ə rəsmi səfəri ilə əsası qoyulmuş yüksək səviyyəli siyasi dialoq Prezident İlham Əliyev tərəfindən də uğurla inkişaf etdirilib və ikitərəfli əlaqələrimiz keyfiyyətcə yeni mərhələyə yüksəlib.




Məhz bu cür sıx əməkdaşlıq münasibətləri iki ölkənin hakim partiyaları - Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyası arasında fəal əməkdaşlığın formalaşmasına münbit şərait yaradıb. Bu cür yüksək səviyyəli əlaqələr sayəsində hakim partiyalar arasında qarşılıqlı səfərlər təşkil olunur, dövlət və cəmiyyət idarəçiliyi sahəsində təcrübə mübadilələri həyata keçirilir.

Milli Məclisin komitə sədri Azərbaycanın və Çinin bir-birinin milli maraqları üçün müstəsna əhəmiyyət kəsb edən məsələlərdə daim qarşılıqlı dəstək nümayiş etdirdiklərini deyib. Belə ki, Azərbaycan "Vahid Çin" siyasətini, Çin isə Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərinin toxunulmazlığını dəstəkləyir. Çin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin BMT-nin Təhlükəsizlik Şurasının məlum qətnamələrinə müvafiq olaraq həllinə tərəfdardır.

Qeyd olunub ki, Çinin dövlət başçısı tərəfindən irəli sürülmüş "Bir kəmər, bir yol" təşəbbüsü ikitərəfli münasibətlərimizin genişləndirilməsinə və dərinləşməsinə yeni imkanlar yaradıb. Azərbaycan bu təşəbbüsü ilk dəstəkləyən ölkələrdən biri olaraq, reallaşdırdığı irimiqyaslı nəqliyyat-infrastruktur layihələri ilə onun həyata keçirilməsinə öz əhəmiyyətli töhfəsini verməkdədir. Bu xüsusda Azərbaycan Prezidenti İlham Əliyevin cari il aprelin 25-27-də Pekin şəhərində keçirilmiş 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda iştirakı ölkələrimizin sözügedən təşəbbüsü birgə reallaşdırmağa sadiqliklərinin bir daha təsdiqi kimi dəyərləndirilməlidir. Hadı Rəcəbli Azərbaycanın əldə etdiyi uğurlardan, iqtisadiyyatın inkişafından, əhalinin sosial rifahı halının yüksəlməsindən, beynəlxalq aləmdə artan nüfuzundan danışıb. Konfrans digər çıxışlarla davam etdirilib.

# Xaricdə mühacir adı ilə fəaliyyət göstərən dairələr və onların sifarişçiləri güclü Azərbaycan istəmirlər

*Milli Məclisin Gənclər və idman komitəsinin sədr müavini Şahin İsmayılovun yap.org.az-a müsahibəsi*



***- Şahin müəllim, bu gün cəmiyyətimizdə əsas müzakirə mövzularından biri xaricdə mühacir adı ilə fəaliyyət göstərən dairələrin ölkəmizə qarşı apardıqları qarayaxma kampaniyası ilə bağlıdır. Bu barədə nə deyə bilərsiniz?***

- Tarixin müxtəlif dövrlərində bu və ya digər dövlətə və ya quruma təsir göstərmək üçün müxtəlif vasitələrdən istifadə olunub. 21-ci əsrdə də təsir vasitələri öz aktuallığını qorumaqdadır. Forma dəyişsə də, məzmun eyni olaraq qalır. Müxtəlif beyin mərkəzləri hər zaman yeni təsir vasitələri hazırlayırlar. Təbii ki, bu təsir vasitələrini həyata keçirmək üçün də alətlər tələb olunur. Şübhəsiz ki, bu gün özlərini mühacir adlandıran şəxslər sadəcə olaraq alətlərdir. Bəs bu alətlərdən istifadə edən sifarişçilər kimlərdir? Bu sualın cavabı isə o qədər də çətin deyil: ənənəvi anti-Azərbaycan qüvvələri. Bu qüvvələrin istəyi isə Azərbaycana qarşı qarayaxma kampaniyası aparmaq, ölkədaxili çaxnaşma salmaq, insanları dövlət institutlarına qarşı qaldırmaq, dövlətçiliyi sarsıtmaq və s.-dir. Düzdür, özlərini mühacir adlandıran şəxslər hər cəhdlə iddia edirlər ki, onlar hər hansı bir qurum və ya şəxslərlə əməkdaşlıq etmirlər. Bunları isə sübut etmək elə də çətin deyil. Sadə suallar verməklə cavablar tapmaq olar. Necə ola bilər ki, heç bir yerdə işləmədən uzun müddət Avropanın müxtəlif şəhərlərində kifayət qədər yaxşı şəraitdə yaşayırlar mühacir düşərgələrində yox? Qaçqın problemindən əziyyət çəkən Avropada necə ola bilər ki, bu şəxslərin miqrasiya problemləri asanlıqla həll olunur? Nəyə görə bu insanlar istənilən anti-Azərbaycan kampaniyasında hər zaman ön cərgələrdə olurlar? Nə üçün müxtəlif donorlar hər zaman ənənəvi simalarla əməkdaşlıq edirlər və s. Düşünürəm ki, kifayət qədər sadə suallardır.

Müxtəlif dövrlərdə Azərbaycana təsir cəhdlərinin şahidi olmuşuq. Hər zaman da bu kampaniyalar uğursuzluqlarla nəticələnmişdir. Çünki Azərbaycan güclü dövlətdir, dövlət institutları peşəkar fəaliyyət göstərir, xalq-iqtidar birliyi yüksək səviyyədədir, ölkə Prezidentinin nüfuzu kifayət qədər yüksəkdir və Onun həyata keçirdiyi siyasət xalq tərəfindən dəstəklənir. Düşünürəm ki, dövrü xarakter daşıyan bu kampaniyanın da sonu sələflərindən fərqli olmayacaq. Çünki onların dediklərinin əksi olaraq, Azərbaycan inkişaf etməkdə davam edir, nəhəng iqtisadi layihələr həyata keçirilir, iqtidar qarşısına qoyduğu hədəflərə çatır. Bax elə burada sizin sualınız cavabı bir daha özünü göstərir, xaricdə mühacir adı ilə fəaliyyət göstərən dairələrin ölkəmizə qarşı apardıqları qarayaxma kampaniyası və onun sifarişçiləri güclü Azərbaycan istəmirlər.

***- Narahatlıq doğuran bir məqam da mühacir müxalifətin xaricdəki müəyyən dairələrin, xüsusi xidmət orqanlarının maraqlarına xidmət etməsidir. Bu fakt nə dərəcədə təhlükəlidir?***

- Qeyd etdiyim kimi, bu insanlar sadəcə olaraq alət rolunda çıxış edirlər və onlar müxtəlif sifarişləri yerinə yetirirlər. Azərbaycan xalqının genetik kodunda xəyanət yoxdur. Vətən bütün anlayışlardan öndə gəlir. Belə insanların bu cür əməlləri isə sadəcə olaraq təəssüf doğurur. Ona görə mən məsələni təhlükəli yox, təəssüfedici adlandırmaq istərdim. Bir məsələ dəqiqdir ki, Azərbaycan gücləndikcə dostlarının olduğu kimi onu istəməyən qüvvələrin də sayı artır. Buna əsas səbəblərdən biri isə erməni diasporası və onların müttəfiqləridir. Hərbi və siyasi müstəvidə mübarizə apara bilməyən ermənilər vaxtaşarı müxtəlif kampaniyalar təşkil etməklə Azərbaycanı gözdən salmağa çalışırlar.

Təəssüf edirəm ki, özlərini mühacir adlandıran şəxslər birbaşa və ya dolayı olsa da bu kampaniyalara qoşulurlar. Bu isə müstəqil Azərbaycan uğrunda həlak olan insanların ruhlarına hörmətsizlikdir. Əsl vətənpərvərlik nümunəsini gücünü vətəni gözdən salmağa yox, onu gücləndirməyə çalışmaq olardı. Daha güclü Azərbaycanın olması üçün isə hər bir azərbaycanlı öz əlindən gələni etməlidir.

***- Azərbaycanda siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyinə qarşı ölkəmizdəki siyasi partiyaların və vətəndaş cəmiyyətinin həmrəyliyi nə dərəcədə zəruridir?***

- Tutduğu vəzifədən, çalışdığı yerdən, təhsilindən, dünyagörüşündən və s. asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı bilməlidir ki, Azərbaycanı azərbaycanlılardan daha çox heç kəs sevə bilməz. Azərbaycan bizim hər birimiz üçün müqəddəsdir. Dünyada kifayət qədər xarici müdaxilələr nəticəsində məhv olmuş dövlətlər vardır. Həmin dövlətlərə isə daha gözəl həyat vəd edilirdi. Nəticə hər birimizin gözü qarşısındadır. Təbii ki, bu cür müdaxilələri ölkəmizə etmək mümkün deyil. Çünki Azərbaycan güclü dövlətdir, onun güclü lideri var və Azərbaycan xalqı kifayət qədər müdrikdir. Ölkəmizin daha da güclənməsi üçün hər bir sağlam qüvvənin cəmiyyətə düzgün mesajlar verməsi vacibdir. Siyasi partiyalar, vətəndaş cəmiyyəti nümayəndələri xarici müdaxilələrə ciddi müqavimət göstərməlidirlər.

Xüsusilə vətəndaş cəmiyyəti nümayəndələri bu prosesdə vacib rol oyanaya bilərlər. Bildiyiniz kimi ölkələr haqqında müəyyən hesabatlar məhz QHT-lərin rəyləri əsasında formalaşır. Odur ki, QHT-lər Azərbaycan reallıqlarının düzgün çatdırılması və dezinformasiyaya qarşı mübarizədə vacib rol oynayırlar. Onların bu işlərə töhvəsi kifayət qədər vacibdir. Siyasi partiyalar da həmçinin ümumölkə məsələlərində əməkdaşlığa yer verməlidirlər.

Xüsusi qeyd etmək istərdim ki, hər zaman belə məqamlarda Yeni Azərbaycan Partiyası öz avanqard mövqeyini nümayiş etdirir və ölkə üçün hər bir sağlam təşkilatı əməkdaşlığa çağırır.

# YAP nümayəndə heyəti Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Ali Partiya Məktəbində olub



Sentyabrın 12-də Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyəti Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Ali Partiya Məktəbinin beynəlxalq əməkdaşlıq şöbəsinin direktoru xanım Dun Tsin və məktəbin təhsil şöbəsinin direktoru xanım Lo Mintsi ilə görüşüb.

YAP-ın mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Ali Partiya Məktəbinin strukturu, təhsilin məzmunu və prinsipləri haqqında məlumat verilib.

YAP nümayəndə heyətinin rəhbəri, Milli Məclisin komitə sədri Hadi Rəcəbli dövlət idarəçiliyi sahəsində peşəkar kadrların hazırlanmasına dair Azərbaycanın təcrübəsindən bəhs edib, həmçinin Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının fəaliyyəti haqqında məlumat verib. Sonda YAP adından müxtəlif hədiyyələr Çin Ali Partiya Məktəbinə təqdim olunub.

# XİN: Fransa deputatlarının Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə qanunsuz səfərini qəti şəkildə pisləyirik



Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi fransız deputatların Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə səfəri ilə bağlı məsələni şərh edib.

AZƏRTAC xəbər verir ki, bununla bağlı verilən açıqlamada deyilir: "Fransa parlamentarilərinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə qanunsuz səfərini qəti şəkildə pisləyirik.

Yerli azərbaycanlı əhalinin qanlı etnik təmizləməsini həyata keçirən və münaqişənin həlli çərçivəsində məcburi köçkünlərin əzəli yaşayış yerlərinə qayıtmalarının qarşısını almaq üçün əlindən gələni edən Ermənistan tərəfindən ölkəmizin işğal olunmuş ərazilərinə bu qanunsuz səfərin həyata keçirilməsi Fransa parlamenti üzvlərinin rəhbər tutmalı olduqları "azadlıq, bərabərlik, qardaşlıq" yüksək ideallarına və fundamental insan hüquqlarına tamamilə ziddir.

Qeyd etmək lazımdır ki, bu addım qərəzli, Fransanın erməni lobbisinin təsiri altında olan və əvvəlki qanunsuz səfərləri səbəbindən adı artıq Azərbaycana girişi arzuolunmaz şəxslər siyahısında yer alan Gi Tesye (Guy Teissier) kimi deputatlar tərəfindən atılıb. Ona qoşulan qanunsuz səfərin digər iştirakçılarının, deputatlar Valeri Buaye (Valerie Boyer), Jan-Pyer Cübertafon (Jean-Pierre Cubertafon), Məhəmməd Laqhila (Mohamad Laqhila), Daniel Kazaryan (Daniele Cazarian), Giyom Kasparyan (Guillaume Casbarian) və senator Pyer Uzuliasın (Pierre Ouzoulias) da adları müvafiq olaraq həmin siyahıya salınacaqdır.

Bununla əlaqədar Fransanın ölkəmizdəki müvəqqəti işlər vəkili Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılıb və ona Fransa tərəfinə ünvanlanan etiraz notası təqdim edilib. Sənəddə bu cür qanunsuz səfərlərin həyata keçirilməsinin ATƏT-in Minsk qrupu həmsədrlərinin, o cümlədən Fransanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həll olunması məqsədini güdən səylərini ciddi şəkildə sarsıtdığına, eyni zamanda, bu prosesdə vasitəçi qismində Fransanın nüfuzuna xələl gətirdiyinə xüsusi diqqət çəkilir.

Fransa hökumətini bir daha bu ölkənin parlamentarilərinin Azərbaycan ərazilərinin işğalı nəticəsində yaranmış status-kvonun möhkəmləndirilməsinə yönəlmiş qanunsuz səfərlərinin qarşısını almaq üçün qətiyyətli tədbirlər görməyə və bununla da, öz beynəlxalq öhdəliklərinin düzgün yerinə yetirilməsi maraqlarını rəhbər tutaraq, nizamlamada vasitəçi kimi qərəzsiz yanaşmasının ardıcıllığını təsdiq etməyə çağırırıq".

# Erməni parlamenti Aprel döyüşlərində ağır məğlubiyyətin səbəblərini araşdırır



Ermənistanda Aprel döyüşlərində ermənilərin ağır məğlubiyyətə uğramasının səbəblərini təhqiq edən parlament komissiyası 2016-cı ilin aprelində həmin hərbi əməliyyatların iştirakçısı olmuş zabit və əsgərləri qanunverici orqana dəvət edib. AZƏRTAC xəbər verir ki, bu məlumatı Ermənistanın "Qraparak" qəzeti yayıb.

Qəzetin məlumatına görə, ilk növbədə, parlamentə həmin vaxt cəbhə xəttində olmuş erməni hərbçilər dəvət olunacaq və onlar erməni ordusunun bu qədər ağır itkilər verməsinin səbəbləri ilə bağlı mülahizələrini bildirəcəklər. Qeyd olunub ki, artıq bu məsələ ilə bağlı Ermənistan Müdafiə Nazirliyinin əməliyyat idarəsi rəisinin hazırda vəzifələrində qalan müavinləri parlament komissiyasında ifadə veriblər. Bundan başqa, parlament komissiyası Aprel döyüşlərində məğlubiyyətlə əlaqədar qapalı iclas da keçirilib. Bildirilir ki, Ermənistanın sabiq prezidenti Serj Sarkisyan da ifadə verəcək. Qeyd edək ki, Ermənistanın əvvəlki iqtidarının hakimiyyətdən getməsinə əsas səbəb olan və erməni ordusunun döyüş qabiliyyətinin zəif olmasını sübut edən Aprel döyüşləri erməni cəmiyyətində ciddi narazılıq doğurub. Hazırkı baş nazir Nikol Paşinyan isə həmin məğlubiyyətdən istifadə edərək öz bədxahlarından qisas almaq fikrindədir.




## Həci "ürəkdir"...

MƏTLƏB
Metlebsalahov@mail.ru

***Neçə vaxtdır ki, bu mövzunu yazmağa hazırlaşırdım. Amma elə bil, bu mövzu həm də ağır gəlir adama. Sanki nədənsə çəkinirsən və ehtiyat edirsən. Bu ehtiyatlılığımın əsl səbəbi başqadır, tam başqa. Ona görə yox ki, "Həci ürəkdir" mövzusu son günlər cəmiyyəti başına alıb gedir və hansısa "həcinin" təpkisi ilə qarşılaşacağımdan qorxuram. Yox, çəkinməyim bununla bağlı deyil. Çünki yüz yox, lap min faiz əminəm ki, bu tip "həcilər" heç vaxt ortaya çıxıb özlərini "yandırmazlar".***

Çəkinməyimin, ehtiyat etməyimin səbəbi odur ki, 200-300 il bundan əvvəl at və dəvə belində aylarla, yüz cür məşəqqətlə yola çıxıb müqəddəs Həcc ziyarətinə yollanan, el-obada böyük dəyər və ehtiram sahibləri olan ata-babalarımızın dəyərli ruhlarına toxunan söz-cümlə işlətməyək. O KİŞİLƏR, rüşvət və cinayət yolu ilə, onun-bunun haqqını yeyib, dəb xatirinə müqəddəs torpaqlara yollanmırdılar. O KİŞİLƏR indiki bir çox üzdəniraq "həcilər" kimi kirli əməllərə bulaşan adların, cəmiyyətdə murdar əməllərə görə dəyərsiz olan şəxsiyyətlərini "hörmətə mindirmək" üçün hacı adını qazanmaq qayğısı ilə yaşamırdılar. Onlar da qıraqda-bucaqda şou-biznes "gözəlçələrini" əl üstündə saxlayıb, sonra cəmiyyətdə pis nümunə kimi təqdim olunmurdular. Onların dövründə şou-biznes olmasa da, hər halda, indiki "qaranquşlardan" daha gözəlləri az deyildi...

Son vaxtlar şou əxlaqsızlığı kimi tanınan "şou-biznes" məkanında bir də "həci" obrazları yaman dəbə düşüb. Bir çox şou-biznes "qaranquşları", öz yataq partnyorlarını cəmiyyətə beləcə də təqdim edirlər: "Həci uşağımın atasıdır." Ay o "həciyə" də, sənə də...

Bu "həcilər" niyə ancaq şou-biznes maskalarının sponsoru olurlar? Yoxsa bu "qaranquşlara" sponsorluq eləmək "həcilər" üçün bir nömrəli savabdır? Belə çıxır ki, indi belə "həcilər" üçün bu tipli "savablar" daha cazibədardır. Belə gözəlçələr də özlərinin alt-üst olmuş adlarını "təmizə" çıxarmaq üçün bu tipli "həciləri" həmin ideal variant kimi seçirlər. Ərin kimdir?-"HƏCİ"!

Qazanc mənbələri də özləri kimi sirli qalan bu tipli "həcilər", öz şou-biznesdəki gözəlçələri üçün villa və obyektlər tikdirir, onlara gözəllik salonları açdırır, həmin obyektləri də azı 4-5 dəfə Həcc ziyarətinə gedib-gəlməyə bəs edən pulların ağırlığında olan avadanlıq və aksesuarlarla təmin edirlər. Hətta Avropanın aparıcı paytaxtlarında olan aksesuarları Bakıya daşıtdırırlar. "Həci" səxavəti buna deyərlər...

Qabaqlar Həcc ziyarətindən gələn hacıların ziyarətinə gedərdilər. İnsanlar, mənəviyyatı daha da paklaşmış, şeytana daş atıb bütün pislikləri daşqalaq edən bu insanlara son dərəcə hörmət edər, onlara nümunə kimi yanaşardılar. Həqiqi mənəviyyat sahibi olan həmin hacılar da, öz əməlləri ilə, insanlara olan münasibətləri ilə məsuliyyəti doğrulurdular. Çünki O KİŞİLƏRİN turist təyyarəsində Həcc ziyarətinə yollanıb, çirkli pullar hesabına şeytanı daşlamaq və ləkələnmiş adlarını "təmizə çıxarmaq" kimi bir dərdləri yox idi. Mənəvi dəyərlərim, dini dəyərlərim bu cür gerizəkalıların ucbatından uçuruma yuvarlanır. Odur ki, "Həci" ürək deyil, "həci" biyabırçılıqdır...

# Bir istefa haqqında: Con Bolton hansı səbəblərdən işdən uzaqlaşdırıldı?




***Son günlər dünya mətbuatı ABŞ Prezidentinin milli təhlükəsizlik müşaviri Con Boltonun vəzifəsindən getməsi məsələsini müzakirə edir. Ekspertlər bu hadisənin səbəblərini tapmağa çalışır. Bir istefaya bu qədər maraq göstərilməsi təsadüfi deyil. Söhbət dünyanın ən qüdrətli dövlətinin xarici və təhlükəsizlik siyasətində mühüm rol oynayan şəxsdən gedir. C.Bolton son üç ildə Donald Trampın üçüncü müşaviri idi. Ona qədər həmin vəzifədə çalışanlardan bir qədər artıq işləyə bildi. Lakin nəticə baxımından öz sələflərindən elə də fərqlənmədi. Əksinə, qəfil işdən getməsi ilə daha çox sual yaratdı. Ekspertlərin irəli sürdüyü fikirlər kontekstindən C.Boltonun vəzifədən uzaqlaşdırılmasının geosiyasi aspekti üzərində geniş dayanmağa ehtiyac gördük.***

## Fikir ayrılığı dərinləşir?

Ekspertlər Con Boltonun Şərqi Avropa turnesinin müəmmalı tərəflərini analiz etməkdə ikən, onun özünün "müəmmalı" olaraq işdən çıxarılması informasiyası yayıldı. Prezident Donald Tramp sentyabrın 9-da "Tvitter" səhifəsi vasitəsilə bildirdi ki, milli təhlükəsizlik məsələləri üzrə müşaviri C.Boltonu işdən azad edib. Səbəb isə bir sıra məsələlər üzrə kəskin fikir ayrılığının olması ilə bağlıdır. Əlbəttə, həmin məsələlər təhlükəsizlik sahəsinə aiddir. Ancaq konkret olaraq onlardan hansına və ya hansılara görə C.Bolton vəzifəsindən getməli olub, bu, izah edilmir.

Əslində, ekspertlər bütövlükdə fikir ayrılığının bağlı ola biləcəyi məsələləri təxmin edirlər. Bu sırada Əfqanıstan, İran, Rusiya, Şimali Koreya, Venesuela və Yaxın Şərq göstərilir. Yeni Avropa istiqamətindən narazılığın olduğu təxmin edilmir. Çin məsələsi ilə bağlı da hansısa konkret detal göstərilmir. Belə çıxır ki, D.Trampla C.Bolton arasında mövqe fərqliliyi Amerikanın ciddi problemlərinin olduğu istiqamətlərdə nə dərəcədə sərt davranması ilə əlaqəlidir. Məsələnin bu cür qoyuluşunun öz səbəbləri vardır. Ekspertlər əmindirlər ki, D.Tramp ilə C.Boltonu birləşdirən məqam xarici siyasətdə sərt və radikal addımlar atmaqla bağlıdır. Təcrübə göstərir ki, D.Tramp əksər hallarda kifayət qədər radikal davrana bilir. Lakin D.Tramp həm də yeri gələndə geri çəkilməyi də bacarır. Məsələn, o, ticarət mübahisəsini real hərbi toqquşmaya çevirmir. İran məsələsində də son anda hərbi əməliyyatlardan çəkindi.

Bundan başqa, D.Tramp Əfqanıstandan, Suriyadan hərbi qüvvələri çıxarmaqla bağlı qərar qəbul etsə də, bunların da qarşısını Ağ Evdəki və Pentaqondakı "qırğılar" hər dəfə alıblar. Görünür, bu kimi səbəblərdəndir ki, D.Tramp milli təhlükəsizlik üzrə müşavirlərini tez-tez dəyişməli olur. Son üç ildə o, üç müşavir dəyişib. Maykl Flinn cəmi bir ay (yanvar-fevral 2017-ci il), Herbert Makmaster isə bir ildən bir az çox işlədi (fevral, 2017 - aprel, 2018). C.Bolton həmin vəzifədə 2018-ci ilin aprelindən 2019-cu ilin sentyabrına qədər oldu. Maraqlıdır ki, hər üç müşavir üçün təxminən eyni fikirləri deyirlər - təhlükəsizliyin bir sıra istiqamətlərilə bağlı Prezidentlə fikir ayrılığı. ABŞ-ın xarici siyasətinin geosiyasi aspekti ilə əlaqəli maraqlı cəhət də bununla bağlıdır.

D.Tramp milli təhlükəsizlik məsələsində müşavirləri ilə niyə ümumi dil tapa bilmir? Görünür, burada Amerika üçün mürəkkəb bir dönəmdən söhbət gedir. Vaşinqtonun xarici siyasətdə düzəlişlər etmək məcburiyyəti qarşısında qaldığı hiss edilir. Çünki dünya artıq onu birmənalı surətdə lider kimi qəbul etmir. Ona alternativ ola biləcək güclər meydana çıxıb. Belə görünür ki, Amerika üçün buna qarşılıq optimal xarici siyasət kursu ilə bağlı hakimiyyət dairələrində konsensus yoxdur.

Bunun konkret təzahürlərindən biri "Taliban"la aparılan danışıqlar ətrafında özünü göstərib. Ekspertlərin rəyinə görə, son anda "Taliban" hərəkatı ilə imzalanmalı olan sənəddən vaz keçilməsində C.Boltonun rolu olub. O, açıq şəkildə "Taliban"la aparılan danışıqların əleyhinə olub. D.Tramp isə bütün gücü ilə bu təşkilatla anlaşıb, Əfqanıstanda yeni mərhələni başlatmağa çalışır.

Digər məsələ kimi İran göstərilir. C.Bolton İranla hər hansı anlaşmaya qarşıdır. O, Tehranın "cəzalandırılma-

# Bir istefa haqqında: Con Bolton hansı səbəblərdən işdən uzaqlaşdırıldı?

sı"na üstünlük verir. Şimali Koreya məsələsində də C.Boltonun kifayət qədər sərt mövqe tutduğu bildirilir. Nəhayət, maraqlıdır ki, C.Bolton bir neçə dəfə BMT-nin yararsızlığını da ifadə edib. O, bu təşkilatın heç bir iş görmədiyini və çoxmərtəbəli binanı zəbt etdiyini açıq deyib. Fikrinə davam edərək ifadə edib ki, əgər həmin binanın mərtəbələri boşalsa, elə bir dəyişiklik olmayacaq, dünya ziyana düşməyəcək.

## Yeniləşmənin ziddiyyətləri

Belə görünür ki, C.Bolton kifayət qədər sərt mövqeli siyasətçidir. Bəs onda D.Tramp nəyə görə onu özünə müşavir seçmişdi? Məsələnin maraqlı tərəfi bundan ibarətdir. Bu hal Amerika siyasi elitasında əksər məsələlər üzrə fikir ayrılığının dərinləşməsini göstərmirmi? Ekspertlər, əslində, bu fikrin üstündə dayanırlar. Onlar belə hesab edirlər ki, C.Boltonun istefası şəxsi münasibət məsələsi ilə bağlı deyil. Burada bütövlükdə ABŞ hakimiyyət dairələrində getdikcə mövqe fərqliliyinin artması əsas səbəbdir. Xüsusilə Rusiya və Çin məsələsində bu tendensiya özünü daha qabarıq göstərir.

Rusiyanın Amerikadakı seçkilərə müdaxiləsi ilə bağlı səs-küy səngimir. Aparılan təhqiqatlar bir nəticə verməsə də, yenə də siyasilər bu məsələdən bəhs edirlər. D.Trampın Rusiyanı G7-yə dəvət etmək istəyində olmasına da bir sıra hallarda məhz bu kontekstdə qiymət verməyə çalışırlar. Ancaq D.Trampın bu təklifi Rusiyanı Çindən ayırmaq məqsədi ilə verdiyi məlumdur. Belə görünür ki, Amerika iqtidarında fikir birliyinə nail olmaq xeyli çətinləşib. C.Boltonun Şərqi Avropaya səfəri və "Taliban" ilə aparılan danışıqlar fonunda vəzifədən getməsi isə Vaşinqtonun uğurlu addım ata bilmədiyi təəssüratını yaradır. Ən azından bu istiqamətlərdə problemlər kifayət qədərdir. Əks halda, C.Bolton indi başqa səfərə hazırlaşırdı.

Belə bir vəziyyət özlüyündə qlobal geosiyasətdə silkələnmələr ehtimalından xəbər verir. Çünki hiss olunur ki, Vaşinqton məqsədlərinə nail ola bilmir və necə nail olmaq haqqında da konkret təsəvvürü yoxdur. Dünyanın ən güclü dövlətində bu cür qeyri-müəyyənliyin olması təhlükəli tendensiyadır. Digər tərəfdən, dünyanın başqa böyük gücləri bundan daha da ruhlana və Amerikanın apardığı siyasi kursa müqavimətini daha da artıra bilərlər. Bu, qlobal miqyasda ümumi vəziyyətin daha da mürəkkəbləşəcəyini istisna etmir.

Maraqlıdır ki, C.Bolton Böyük Britaniyanın Avropa İttifaqını tərk etməsi - "Breksit"lə bağlı ciddi proseslərin getdiyi bir mərhələdə işdən uzaqlaşdırıldı. Londonun bununla hansı bağlantısının olduğu haqqında bir informasiya yoxdur. Lakin ekspertlərə görə, söhbət, ümumiyyətlə, Avratlantik məkanının gələcəyi ilə əlaqəli ola bilər. Son vaxtlar Pakistanla Hindistan arasında münasibətlərin gərginləşməsi fonunda Avratlantik məkanı və Asiya mövzusu aktuallaşır. Bu kontekstdə də Böyük Britaniyanın Qərb siyasətində mövqeyi önəm kəsb edir. Məhz həmin aspektdə də Böyük Britaniyanın baş naziri Boris Consonun mövqeyinin zəifləməsi düşündürücü görünür. Məlumdur ki, D.Tramp onu dəstəkləyir. Deməli, C.Bolton bu istiqamətdə də kifayət qədər səmərəli çalışmayıb.

Başqa bir çətinlik Venesuela ilə əlaqəlidir. C.Bolton Venesuelaya qarşı sərt hərbi müdaxilə tələb edirdi. D.Tramp isə Latın Amerikası qitəsində ABŞ üçün mürəkkəb hərbi situasiya yaratmağı riskli hesab edir. O, belə məqamlarda daha çevik diplomatiyaya üstünlük verir. Aydındır ki, bu, C.Boltonun stili deyil.

Nəhayət, C.Boltonun istefasından bir qədər sonra İsrailin baş naziri Binyamin Netanyahunun dünyanı silkələyən bəyanat verməsi maraq doğurur. O, Knessetə seçkilərdən sonra İsrailin müstəqilliyini İordan vadisinədək yayacağını deyib. Beynəlxalq aləm bundan narahatlığını bildirib. Çünki belə bir davranış zəncirvarı olaraq başqa regionlarda da problemlər yarada bilər.

Beləliklə, bu qənaətə gəlmək olar ki, C.Boltonun işdən uzaqlaşdırılması Vaşinqtonun xarici siyasət kursunda mövcud olan ümumi problemlərlə bağlı ola bilər. Yəni onu ancaq C.Boltonun mövqeyi ilə əlaqələndirmək yarımçıqlıqdır. Bu səbəbdən C.Boltonu kimin əvəz edəcəyi maraqlıdır. Yeni milli təhlükəsizlik müşavirinin vəziyyəti köklü surətdə dəyişəcəyinə inanmaq çətindir. Əslində, həmin vəzifənin səlahiyyəti də nəyisə dəyişməkdən ibarət deyil. O, əsas olaraq Prezidentin yeritdiyi siyasəti səmərəli həyata keçirmək və dövlət başçısına milli təhlükəsizliklə əlaqəli təkliflər verməkdir.

Bu səbəbdəndir ki, ekspertlər daha çox "yeni müşavir nə qədər vəzifədə qala biləcək?" kimi sual verirlər. Əslində isə geosiyasi kontekstdə daha maraqlısı başqa sualla bağlıdır. Konkret olaraq, D.Trampın xarici siyasətdə istədiyini yeni müşavir fəaliyyətində tam ifadə edə biləcəkmi? Və bu siyasət ABŞ-ı və onunla bərabər dünyanı haraya aparacaq?

**Newtimes.az**

## DSX-nin Çevik Hərəkət Qüvvələrinin hərbi hissəsində yeni idman kompleksi istifadəyə verilib

***Azərbaycan Sərhəd Mühafizəsinin inkişafı və dövlət sərhədinin etibarlı mühafizəsi üçün sərhədçilərin peşəkarlıq səviyyəsinin və fiziki hazırlığının yüksəldilməsi mühüm əhəmiyyət kəsb edir. Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin açılışını etdiyi DSX-nin Çevik Hərəkət Qüvvələrinin Yevlax şəhərindəki hərbi hissəsində yeni idman kompleksi istifadəyə verilib.***





İdman kompleksinin açılış mərasimində iştirak edən DSX-nin Çevik Hərəkət Qüvvələrinin komandanı, general-leytenant Ehram Hacıyev Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyevin təbrikini şəxsi heyətə çatdırıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında hərbi qulluqçular üçün zəruri xidməti və yaşayış səviyyəsinin təmin edilməsi, o cümlədən bədən tərbiyəsi və fiziki hazırlıqla məşğul olmaları üçün lazımi şəraitin yaradılması istiqamətində önəmli tədbirlərin görülməsi, bu sırada "Sərhədçi" idman olimpiya mərkəzinin, həmçinin bütün sərhəd dəstələrinin və digər hərbi hissələrin nəzdində yaradılmış idman komplekslərinin fəaliyyətinə böyük önəm verilməsi xüsusi qeyd olunub.

Yeni inşa edilmiş idman kompleksində çevikliyi və dözümlülüyü artırmaq üçün ən müasir avadanlıqla təchiz edilmiş trenajor zalı, stolüstü tennis və bilyard zalı, voleybol, basketbol və mini futbol oyunlarının keçirilməsi üçün nəzərdə tutulmuş böyük idman zalı mövcuddur. İdman kompleksində, həmçinin tamaşaçılar üçün tribuna, idmançılar üçün rahat geyinib-soyunma və yuyunma otaqları, kompleksin fəaliyyətini təmin etmək üçün zəruri avadanlıqla təchiz edilmiş xidməti otaqlar da istifadəyə verilib. İdman kompleksinə baxış keçirildikdən sonra nümunəvi çıxışlar təqdim olunub.




## Özbəkistanın "Caxon adabiyyati" jurnalında Azərbaycan yazıçılarının əsərləri çap olunub

Özbəkistanın "Caxon adabiyyati" jurnalında Azərbaycan yazıçılarının əsərləri çap edilib. AZƏRTAC xəbər verir ki, nəşrdə Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anarın "Əlbəttə görüşərik" hekayəsi dərc edilib. Hekayəni orijinaldan özbək yazıçısı Mamatkul Hazratkulov çevirib. Jurnalda Rəsul Rza, Fikrət Sadıq, Nəbi Xəzri, Abbas Abdulla, Yusif Həsənbəy, Eldar Baxış, Rüstəm Behrudi, Hidayət, Sultan Mərzili, Vaqif Bayatlı Önər, Fikrət Mursaqulov, Ayaz Arabaçı, Ülvi Bünyadzadə və İslam Türkayın şerləri çap olunub. Şerləri isə ədəbiyyatımızın yaxın dostu, mərhum şair və tərcüməçi Usman Kuçkar və Uktamoy tərcümə edib. Ümumiyyətlə, "Caxon adabiyyati" tez-tez Azərbaycanın şair və yazıçıları, alimlərinin əsərlərinə müraciət edir.

# AXCP layiq olduğu cəzanı alır

## Müsavat və KXCP tədbirə qatılmamaqla konstruktiv dialoqa hazır olmadıqlarını nümayiş etdirdilər

**Sentyabrın 11-də Bakıda "Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyi" mövzusunda dəyirmi masa keçirilib. Dəyirmi masada siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edib. Müsavat partiyasının başqanı Arif Hacılı və KXCP sədri Mirmahmud Mirəlioğluna dəvət göndərilsə də, onlar dəyirmi masaya qatılmayıb, AXCP isə, ümumiyyətlə, dəvət olunmayıb. Sual yaranır, KXCP və Müsavat niyə müsbət çağırışı dəyərləndirmədilər, nədən AXCP-ni, ümumiyyətlə, bu tədbirdə görmək istəmədilər? Söhbət etdiyimiz müsahiblərimiz bildirdilər ki, Müsavat və KXCP tədbirə qatılmamaqla konstruktiv dialoqa hazır olmadıqlarını nümayiş etdirdilər, AXCP-ni isə dəyirmi masaya dəvət edilməməsinin tutarlı səbəbləri göstərilib.**

### "Yurddaş" partiyasının sədri Mais Səfərli: "Arif Hacılının tədbirə gəlməməsini onun belə tədbirlərdən qaçması kimi qiymətləndirmək lazımdır"

- Bildiyiniz kimi, Azərbaycan çoxpartiyalı sistemdir. Yeni Azərbaycanda çoxlu sayda partiyalar var və onların böyük əksəriyyəti də müxalifət düşərgəsində fəaliyyət göstərən partiyalardır. Bu, Azərbaycanın demokratik-hüquqi dövlət olduğunun bir göstəricisidir.



Azərbaycanda partiya yaratmağın özü, demokratiyadan xəbər verən bir haldır. Bütün demokratik - hüquqi dövlətlərdə olduğu kimi, Azərbaycanda da ümummilli məsələlərdə iqtidar-müxalifət partiyalarının bir araya gəlməsi çox vacib məsələdir. Həmişə iqtidar bu mövqedən çıxış edib. İqtidar hesab edir ki, ümummilli məsələlərdə bir yerdə olmalıdır. Bizim Qarabağ kimi çox ciddi bir problemimiz var ki, bu məsələlərdə bir yerdə olmalıyıq, bir düşünməliyik və bizim düşmənlərimiz də görməlidirlər ki, ümummilli məsələlərdə xalqla hakimiyyət, bir yerdə olduğu kimi, bütün iqtidar-müxalifət partiyaları da bir yerdədir. Dönə-dönə iqtidar bunu bəyan edib. Amma çox təəssüflər olsun ki, radikal müxalifətin ucbatından bu məsələlər çox vaxt baş tutmayıbdır. Elə sonuncu keçirilən tədbirin özünün ümummilli məsələlərdə bir araya gəlmək baxımından, atılan mühüm addım idi. Lakin adını çəkdiyiniz partiyaların orda iştirak etməməsi, elə hesab edirəm ki, o partiyaların konstruktiv dialoqa hazır olmadıqlarını göstərir. Tədbirə AXCP-nin dəvət edilməməsinin səbəbini isə Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı açıqlamışdır. Hesab edirəm ki, bir tədbir iştirakçısı kimi, onun bu açıqlamasına hörmətlə yanaşmaq lazımdır. Arif Hacılıya dəvət göndərildiyi halda, tədbirə gəlməməsini hesab edirəm ki, onun belə tədbirlərdən qaçması kimi qiymətləndirmək lazımdır. Hər halda, cəmiyyət kimin kim olduğunu çox yaxşı bilir və cəmiyyətində marağındadır ki, Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar ümummilli məsələlərdə birlik nümayiş etdirsinlər.

### AGAAMC-in sədri, fəlsəfə doktoru İlqar Orucov: "AXCP-nin tədbirə dəvət olunmaması "söyüş müxalifəti"nin Əli Kərimli tərəfindən maliyyələşməsi ilə bağlıdır"

- Sentyabr ayının 11-də ölkənin ictimai-siyasi həyatında mühüm hadisə kimi baş tutan növbəti iqtidar-müxalifət dialoqu baş tutdu. Görüşü ölkədə sivil siyasi münasibətlərin inkişafı baxımından xeyli əhəmiyyətli və zəruri hadisə olaraq dəyərləndirirəm. Hesab edirəm ki, iqtidar qədər bu kimi görüşlərdə müxalifət



də maraqlı tərəf olmalıdır. Dialoq ən doğru yoldur və bu baxımdan deyə bilərik ki, iqtidar bu istiqamətində üzərinə düşdüyü missiyanı növbəti dəfə reallaşdırdı və bununla da, növbəti siyasi mədəniyyətini nümayiş etdirdi. Ölkənin böyük siyasi partiyaları, ölkəmizin siyasi bilik baxımından təcrübəli insanları bu görüşdə iştirak etdilər və birmənalı olaraq, deməik olar ki, dialoq baş tutdu. İqtidar partiyası dəyirmi masaya qatılması ilə nümayiş etdirdi ki, o, hər cür dialoqa, müxtəlif siyasi mövzularla, problemlərlə bağlı siyasi opponentlərinin rəyini öyrənməyə, eyni zamanda, ölkəmizin gələcəyi ilə əlaqədar mövzularda müzakirələrə açıqdır və müxalifətin fikirlərini, eyni zamanda, tənqidlərini dinləməkdə maraqlıdır. Bu dəfə reallaşan dialoqa göndərilən dəvətə baxmayaraq bəzi müxalifət partiyalarının qatılmaması onu göstərdi ki, bu qüvvələr, əslində, dialoqda maraqlı deyillər. Nəzərə alsaq ki, budəfəki dialoqun mövzusu da xeyli aktual idi və dəyirmi masaya "Azərbaycanda siyasi proseslərə xarici müdaxilə meyilləri" mövzusunun seçilməsi təsadüfi də deyildi. Belə ki, xaricdən ölkəmizin siyasi proseslərinə müdaxilə cəhdləri həmişə olub və bu kimi müdaxilələr hər zaman müdrik xalqımızın iradəsinə məğlub olub. Hazırda dünyada gedən gərgin siyasi burulğanlar fonunda iqtidar və ya müxalifət düşərgəsində dayanmağımızdan asılı olmayaraq, bu kimi təsirlərin ölkəmiz üçün zərərlərinin daha çox fərqində olmalıyıq. Ən azından, son illər dünyanın böyük güclərinin və siyasi institutlarının yaxın Şərqdə törətdiyi dağıdıcı proseslərdən nümunə götürməliyik. Və bununla da, xarici təhdid mövzusunda milli həmrəylik nümayiş etdirməliyik. Bildiyim qədər dəyirmi masaya təkcə Əli Kərimlinin rəhbəri olduğu AXCP dəvət olunmamışdı və bunun da səbəbini dəyirmi masanın təşkilatçısı qismində çıxış edən Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı xaricdə fəaliyyət göstərən söyüş müxalifətinin Əli Kərimli tərəfindən maliyyələşməsi ilə bağlayıb. Fikrimcə, xarici təhdidin reallaşmasında iştirak edən bir partiyanın dialoqa dəvət edilməməsi daha düzgün addımdır. Azərbaycan dövlətinin gələcəyini müəyyənləşdirən yalnız bir qüvvə var ki, o da Azərbaycan xalqıdır və o qüvvə də siyasi cəhətdən, hadisələri dərk etmək baxımından xeyli bitkindir. Hesab edirəm ki, xalqın mənafeyini ifadə etməyən, ümidini, taleyini xarici güclərə bağlayan, ölkəmizə, onun siyasi rəhbərliyinə, bütövlükdə, xalqa qarşı xaricdən idarə olunan istənilən qrupun bu kimi dialoqlara çağırılmaması daha doğru qərardır.

### Azərbaycan Demokratik İslahatların İnkişafı Mərkəzinin sədri, "Avrasiya" İA-nın baş redaktoru Cavid Şahverdiyev: "Əli Kərimlinin bu tədbirə dəvət olunmaması düzgün seçim idi"

- Yeni Azərbaycan Partiyasının da iştirakı ilə keçirilən həmin tədbiri iqtidar-müxalifət dialoqu adlandırmaq olar. Uzun sürən fasilədən sonra iqtidar və iqtidar yönümlü partiya rəsmiləri Azərbaycanın siyasi arenasının müxtəlif simalarını bir araya toplaya bildi. Düzdür, dəvət olunmayan, dəvət olunsa da müxtəlif obyektiv səbəblərdən həmin tədbirdə iştirak edə bilməyən siyasilər də oldu. Amma bütünlükdə, bu tədbirin önəmi "Azərbaycandakı siyasi proseslərə xarici müdaxilə meyilləri" mövzusunun müzakirəsi olub. Bu səpkili mövzular həmişə aktual olub, zamanın reallığını özündə əks etdirib. Belə mövzuların müzakirəsində hamı iştirak etməli, öz fikir və təkliflərini səsləndirməlidirlər. Dəvət göndərilmələrinə baxmayaraq, Müsavat və KXCP rəhbərlərinin həmin tədbirdə iştirak etməkdən boyun qaçırmaları isə aydındır - mövzu ilə bağlı nə danışacaqdılar? AXCP-Müsavat başda olmaqla, hakimiyyətin siyasi kursunu pisləyən bir çox radikal qüvvələr iqtidar-müxalifət dialoqunun baş tutmamasından gileyləniblər. Həmişə iddia ediblər ki, hakimiyyət onlarla dialoqdan qaçır və s. Amma dünən "Azərbaycandakı siyasi proseslərə xarici müdaxilə meyilləri" mövzusunda keçirilən tədbirdə iştirakdan boyun qaçırmaq həmin iddiaların qərəzli və bilərəkdən yayıldığını sübut etdi. Müsavat və ya KXCP rəsmiləri həmin mövzu ilə bağlı nə deyə biləcəkdilər ki? Məgər həmin rəsmilər bilmirlər ki, radikal siyasi təşkilatlar elə xarici qüvvələrin sifarişi ilə Azərbaycanda-



kı siyasi proseslərə müdaxilə edirlər? Məgər Müsavat və KXCP-nin AXCP, "Milli Şura"nın okeanın o tayındakı və Avropadakı bəzi donorların maliyyə dəstəyi ilə Azərbaycandakı siyasi proseslərə müdaxilələrindən xəbərləri yoxdur? Başqa bir məqam isə Müsavat və KXCP-nin tədbirə dəvətdən boyun qaçırması onlarda siyasi mədəniyyətin olmamasından xəbər verir. Dəvəti rədd etməklə onlar, bütövlükdə, siyasi davranış, siyasi baxışları qiymətləndirmək qabiliyyətlərinin olmadığını göstərdilər. Müzakirə olunan mövzunun aktuallığını dəyərləndirmədilər, halbuki bu mövzunun müzakirəsinə qoşulmaq olduqca vacib idi. Belə mövzuların müzakirəsi ayrı-ayrı fərdlərin yox, dövlətimizin siyasi təhlükəsizliyi üçün vacibdir. Amma dəvətdən imtina edənlər, bir daha göstərdilər ki, onlar üçün millət və dövlət anlayışı arxa plandadır. Əgər həmin tədbir Azərbaycan hakimiyyətinin pislənməsi mövzusuna həsr olunsaydı, dəvət olunmadan gələrdilər. AXCP sədri Əli Kərimlinin bu tədbirə dəvət olunmaması düzgün seçim idi. O da dəvətdən boyun qaçıracaqdı, bir də gəlsəydi nə deyəcəkdi? Xarici donorlardan aldığı sifarişlərin Azərbaycanda necə yerinə yetirdiyindən danışacaqdı? Azərbaycandakı siyasi proseslərə xarici müdaxilənin qarşısının necə alınması ilə bağlı hansı üzlə təkliflərlə çıxışlar edəcəkdilər? Bu kimi mövzuları keçmişi təmiz olan, milləti, xalqı, dövlətinin qorunmasıyla bağlı xidməti olan, xarici qüvvələr tərəfindən satın alınmayan simalar müzakirə etməlidirlər.

**GÜLYANƏ**

## Yasamal Yaşayış Kompleksində bu vaxtadək 817 ailə mənzil sahibi olub



İndiyədək 817 ailə Yasamal Yaşayış Kompleksində mənzil sahibi olub. Kompleksdəki binalar üzrə daha 570 mənzil satışa çıxarılır. Həmin mənzillərin seçimi cari il oktyabrın 16-da başlayacaq və oktyabrın 30-dək davam edəcək. Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) İctimaiyyətlə əlaqələr sektorundan bildirilib. Qeyd olunub ki, Yasamal Yaşayış Kompleksində agentliyin sərəncamında 1654 mənzil var. Bugünədək keçirilən satışların nəticəsində 817 ailə mənzilə sahib olub. Yerdə qalan 837 mənzildən 570-nin satışı ilə bağlı elan verilib. Növbəti mərhələdə isə digər 267 mənzil üçün elan veriləcək. Mənzillərin satışı həm ipoteka krediti hesabına, həm də vətəndaşların öz vəsaiti ilə həyata keçirilir.

## Avropa Parlamenti: Brexit təxirə salınsın!

Avropa Parlamenti Böyük Britaniyanın Avropa İttifaqından sazişsiz çıxmasının qarşısını alacağı təqdirdə Brexit prosesinin təxirə salınmasının tərəfdarıdır. Bu barədə Avropa Parlamentinin sədri David Sassoli Brüsseldə mətbuat konfransında bildirib. Onun sözlərinə görə, Avropa Parlamenti Brexit üzrə Strasburqda keçiriləcək plenar sessiyada təqdim olunacaq müvafiq qətnamə layihəsi hazırlayır. Bununla yanaşı, Avropa Parlamentinin rəhbəri London və Brüssel arasında sazişin "bekstop"suz mümkün olmayacağını da vurğulayıb.

## "Bakı Metropoliteni" gələn il yeni qatarlar alacaq

"Bakı Metropoliteni" gələn il yeni qatarlar alacaq. Bu barədə "Bakı Metropoliteni" QSC-nin sədr müavini Hidayət Məmmədov AZƏRTAC-ın sualını cavablandıraraq deyib. O bildirib ki, müəyyən araşdırmalardan sonra gələn il alınacaq qatarların sayı məlum olacaq. Qeyd edək ki, cari ildə "Bakı Metropoliteni" 30 yeni vaqon alaraq istismara verib.

# Arif Məmmədov - nacinslik simvolunun bariz nümunəsi...

*Və ya Jame Mama çevrilmiş Cəmil Məmmədov adlı irqçi gədası*

***Tez-tez Qənimət Zahidin "Azərbaycan saatı"na və ya Sevinc Osmanqızının canlı yayımlarına çıxaraq ağzına və ağlına gələn əfsanələri zorla ictimaiyyətə sırımağa çalışan sabiq diplomat Arif Məmmədovun keçmişi ilə bu günü arasında dağlar qədər fərq var desək, heç də yanılmarıq.***

Ona görə yanılmarıq ki, zamanında Azərbaycan hakimiyyəti ona müxtəlif nüfuzlu beynəlxalq təşkilatlarda - AŞPA-da, ATƏT-də, İƏT-də dövləti təmsil etmək imkanı yaratmışdı və o, uzun illər bu iqtidarın çörəyini yeyib, suyunu içərək, xarici ölkələrdə diplomat statusu altında yaşamını təmin edirdi. Amma sonra nə oldu? A.Məmmədov anidən Qərbdə fəaliyyət göstərən və birbaşa erməni lobbisinin maddi dəstəyi ilə fəaliyyət göstərən anti-Azərbaycan xarakterli siyasi çevrələrin əlaltısına çevrilərək dönüb oldu Azərbaycan dövlətinin və xalqının düşməni. Çünki o, dövlətinin ona verdiyi çörəyi ayaq altına ataraq, düşmən çörəyini daha üstün tutdu. Yumşaq tərzdə ifadə etsək, deme, A.Məmmədovun çörəyi elə dizinin üstündəymiş, hər ayağa qalxanda, düşürmüş ayaqlar altına...

## Avropalıları normal, azərbaycanlıları isə anormal hesab edən satqın!

Maraqlıdır ki, hələ diplomatik korpusda işləyərkən, həmin bu A.Məmmədov Vətənində, xalqı arasında yaşamağı özünə qəbahət bilmişdi. Daha doğrusu, bir neçə günlük Bakıya, Azərbaycana gələrkən, bu cür fikir bildirmişdi. SİTAT: "Təxminən, 20 ildir Avropada normal adamlar sırasında-



yam... 3 gün Bakıda oldum və artıq qocaldım...". Gördüyümüz kimi, bu nacinslik nümunəsi hələ səfir işlədiyi vaxtlardan bu millətə, bu xalqa aşkar qənimə, düşmənə çevrilmişdi - avropalıları normal, azərbaycanlıları isə anormal hesab edirmiş satqınlıq simvolu. Məgər bundan da artıq sübuta ehtiyac varmı?

## Demə, satqınçılıq və xəyanət dədə-balanın qanlarına hopubmuş...

Yeri gəlmişkən, həmin bu A.Məmmədovun oğlu Cəmil Məmmədov da birbaşa nacins dədəsinin nacins oğlu kimi bir sıra davranışları ilə yadda qalıb. Bəribaşdan deyək ki, A.Məmmədov hələ vəzifələrdə olarkən, oğlu Avropada, ABŞ-da kef edirdi, özü də fransız adı altında - Jame Mam ləqəbi ilə - öz millətinin adından, soyadından imtina edən gəda olaraq! Demə, satqınçılıq və xəyanət dədə-balanın qanlarına hopubmuş...

O cümlədən, məlum olub ki, həmin bu keçmiş C.Məmmədov və hazırkı Jame Mam adlı A.Məmmədovun oğlu həm də irqçiymiş, özü də xalisindən.

Elə isə, onun atası A.Məmmədovun vəzifədə olduğu illərdəki statuslarını dəyərli oxucularımızın diqqətinə çatdırıram.

* "Sarsaq, murdar, yaramaz belçikalılar məni hirsləndirdilər! Ölkəni sarsaqlıq və axmaqlıq ikiyə bölüb. Belçikalılar o qədər irqçidirlər ki, ölkələrini Fransa, ABŞ və Çin kimi qüdrətli dövlət hesab edirlər".

* "Holland və flamand dilləri ən murdar, ən eybəcər, ən iyrənc dillərdir", "İsraili lənətə gəlsin! İsrail şərdir!", "Netanyahu irqçi liderdir!", "Donald Trampın sifətinə ela şapalaq vurardım" yazan "Jame" Məmmədov həm də əylənməyi və kef çəkməyi sevir.

* "Bu gün Audi - 8-də qızlarla kef etdim", "Qızların bakirəliklərini itirdiyi anı sevirəm", "Səhərədək qızla yataqda oynadıq".

Bütün bu ifadələr Q.Zahidin və s. sosial şəbəkələrdə canlı yayıma çıxaraq, qrantyeyənliklə məşğul olan digər milli xəyanətkarların verilişlərində boğazını yırtıb, "haqdan", "ədalətdən", "demokratiyadan", "humanizmdən" dəm vuran A.Məmmədovun dost-doğmağa oğlu - Lame Mam ləqəbli C.Məmmədovun fikirləridir. Bir halda ki, dəsə öz balasına normal ağıl, tərbiyə, davranış qaydaları öyrədə bilməyibsə, həmin şəxsin canlı yayımlara çıxaraq boğaz yırtmasını necə anlamaq olar? Əlbəttə ki, heç cür. Anlayış budur ki, A.Məmmədov nacins olaraq oğlunun, nacins oğlu isə onun tayıdır.

Sonda isə belə bir nəticəyə gəlmək olar - bu gün yalnız A.Məmmədovun gül balası deyil, elə digərlərinin də uşaqları Avropada hansı oyunbazlıqlardan desən çıxırlar. Yəqin ki, mətbuatda və sosial şəbəkələrdə AXCP sədri Əli Kərimlinin gül balası Türkel Kərimlinin çoxsaylı fotolarını yenidən xatırlatmağa da ehtiyac yoxdur. Nə çoxdur onun "kayf" tutduğu, gey və fahişələrlə birgə keçirdiyi gecə partilərinin şəkilləri. Təki "Google"nin canı sağ olsun...

**Rövşən NURƏDDİNOĞLU**

## Yararsız ət tədarükü ilə məşğul olan dəstə üzvlərinə qarşı xüsusi əməliyyat keçirilib



Daxili İşlər Nazirliyinin (DİN) Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları Qida Təhlükəsizliyi Agentliyinin mütəxəssislərinin iştirakı ilə vətəndaşların ərzaq təhlükəsizliyinin təminatı istiqamətində növbəti uğurlu əməliyyat tədbiri həyata keçiriblər. DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əməliyyat zamanı mütəşəkkil dəstənin tərkibində birləşən və əvvəllər eyni əməllərə görə məhkum olunmuş şəxslərin yaratdığı şəbəkənin üzvləri ifşa olunaraq məsuliyyətə cəlb ediliblər. Toplanmış materiallardan müəyyən edilib ki, mütəşəkkil dəstənin üzvləri bir müddətdir qidaya yararsız, ölmüş iribuynuzlu mal və at ətlərinin respublikanın müxtəlif rayonlarından toplanması, tədarükü və emalı ilə məşğul olublar. Belə ki, mütəşəkkil dəstəyə rəhbərlik edən, əvvəllər məhkum olunmuş "Leş Tofiq" ləqəbli Alıbəy Rzaxanov Abşeron rayonunun Güzdək qəsəbəsi ərazisində ət tədarükü məntəqəsi yaradaraq qanuni fəaliyyət göstərən heyvan kəsimi sexi görüntüsü altında pərdələnərək cinayətkar şəbəkə formalaşdırıb. O, qurduğu cinayətkar şəbəkə vasitəsilə rayonlardan mənşəyi məlum olmayan, qidaya yararsız, ölmüş heyvan ətlərinin əsasən gecə saatlarında daşınmasını, emalını və satışa çıxarılmasını təşkil edib. Əməliyyat tədbirləri zamanı müəyyən edilib ki, mütəşəkkil dəstənin rəhbərlərindən biri Əlifxan Rzaxanov Sabirabad rayonunun Xəlfəli kəndində eyni qaydada tədarük məntəqəsi yaradaraq mənşəyi məlum olmayan heyvan ətlərini ətraf rayonlardan toplayaraq Alıbəy Rzaxanova göndərilməsini təşkil edib.

Dəstə üzvlərinə məxsus Abşeron rayonunun Güzdək qəsəbəsində, Sabirabad rayonunun Xəlfəli kəndində, Bakı şəhəri Nərimanov rayonu ərazisində yerləşən sex, anbar və gizli saxlanc yerlərinə baxış keçirilərkən 40 tona yaxın qidaya yararsız, mənşəyi məlum olmayan mal və at əti aşkarlanıb. Təyin olunmuş müvafiq ekspertizalarla aşkarlanan ətin qidaya tam yararsız və insan sağlamlığına ciddi təhlükə mənbəyi olması təsdiq edilib. Faktla bağlı Baş İdarədə cinayət işi başlanıb. Mütəşəkkil cinayətkar dəstəyə daxil olan 8 nəfər həbs edilib. Bu cinayətkar şəbəkə ilə əlbir olan və şəxsiyyəti hələ ki müəyyənləşdirilməyən digər şəxslərin də saxlanılaraq istintaqa cəlb olunmaları istiqamətində əməliyyat-axtarış tədbirləri davam etdirilir.

## Xəzər rayonunda avtomobilin vurduğu piyada ölüb



Xəzər rayonunun Qala qəsəbəsi ərazisində yolu keçən 55-60 yaşlı kişi Bakı şəhər sakini A.İsmayılovun idarə etdiyi "Fiat" markalı avtomobillə vurulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həmin şəxs xəstəxanaya aparılarkən yolda ölüb. Nərimanov rayonunun Z.Bünyadov prospektində isə yolu keçən paytaxt sakini Pərvanə Şahbazova Bakı şəhər sakini E.Vəliyevin idarə etdiyi "Mercedes" markalı avtomobillə vurulub. Nəticədə qadın aldığı xəsarətlərdən ölüb. Hadisələrlə bağlı Xəzər və Nərimanov Rayon Polis idarələri tərəfindən araşdırma aparılır.

## Bakcell ən qısa müddətdə LTE şəbəkəsi üzrə Azərbaycanda ən böyük layihəni həyata keçirib




Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti Azərbaycanda LTE şəbəkəsinin genişləndirilməsi üzrə ən genişmiqyaslı layihəni həyata keçirib. 2019-cu ilin may ayından indiyə kimi - cəmi 4 ay ərzində Bakcell 1000-dən çox 4.5G texnologiya ilə təchiz olunmuş LTE baza stansiyası quraşdırıb. Bu cür unikal layihə Azərbaycanda və hətta bütün regionda ilk dəfə həyata keçirilir.

Bu gün 2700-dən çox 4G texnologiyalı baza stansiyası sayəsində Bakcell şirkəti əhatə dairəsi və şəbəkə tutumu baxımından ölkədə ən böyük 4G şəbəkəsinə malikdir və Azərbaycanın bütün regionlarının mərkəz hissələrini (Naxçıvan Muxtar Respublikası və işğal olunmuş ərazilər istisna olmaqla) və ölkə əhalisinin 91%-ni əhatə edir.

Qeyd edək ki, Bakcell şirkəti özünün ultra-sürətli 4G şəbəkəsində LTE Advanced Carrier Aggregation (tezlik daşıyıcılarının birləşməsi) texnologiyasını tətbiqi sayəsində saniyədə 225 Meqabitə qədər olan sürətin dəstəklənməsini təmin edib. Bu gün Bakcell şəbəkəsi dünya üzrə tezlik daşıyıcılarının birləşməsi ilə "LTE-Advanced" texnologiyası üzərindən fəaliyyət göstərən nadir şəbəkələrdən biridir. Sözügedən texnologiya sayəsində Bakcell abunəçiləri 4K kontentini izləmək və yükləmək, əyləncə proqramlarına ani giriş əldə etmək, HD keyfiyyətində onlayn video izləmək, canlı konsert və idman proqramlarına baxmaq və mürəkkəb yeni nəsil mobil tətbiqetmələrindən istifadə etmək imkanına malikdirlər

Azərbaycanda 4G xidmətinin ilk kommersiya istifadəsini istifadəçilərin ixtiyarına vermiş Bakcell, həmçinin Bakı metrosunda 4G şəbəkəsini quraşdıran ilk mobil operatordur.

"Bakcell"in təmin etdiyi keyfiyyət və ən yüksək mobil İnternet sürətinə hətta beynəlxalq səviyyədə də yüksək qiymət verilir. Belə ki, 2018-ci ildə Bakcell "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Bu mükafat şirkətə "Speedtest" xidmətinə görə bütün dünyada tanınan "Ookla" şirkəti tərəfindən təqdim edilib. 2017-ci ildə isə mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən Bakcell şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə adına layiq görülüb.

## Konqoda qatar qəzası olub: azı 50 nəfər ölüb

Dünən Konqo Demokratik Respublikasının cənubunda qatarın relsdən çıxması nəticəsində azı 50 nəfər həlak olub. Bu barədə Reuters agentliyi ölkənin humanitar əməliyyatlar və milli həmrəylik nazirinə istinadla məlumat yayıb. Nazirin sözlərinə görə, qatar səhər saatlarında qəzaya uğrayıb. Hələlik qəzanın səbəbi barədə informasiya verilmir.

## Dələduzluqda şübhəli bilinən qadın saxlanılıb

Nəsimi Rayon Polis İdarəsinin 22-ci Polis Şöbəsinə müraciət edən Bakı və Sumqayıt şəhər sakinləri olan üç nəfər 2018-ci ilin sentyabrından cari ilin mayınadək olan müddətdə Fatimə adlı şəxsin onları aldadaraq ümumilikdə 15,9 min ABŞ dolları və 800 manat pullarını aldıqlarını bildiriblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, polis əməkdaşları tərəfindən aparılan araşdırmalarla həmin şəxsin Bakı şəhər sakini F.Abbaspur olduğu müəyyən edilib. Keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində dələduzluğu törətməkdə şübhəli bilinən qadın saxlanılıb. Onun daha 3 nəfərə qarşı dələduzluq etməsi də məlum olub.

# Rəqəmsal iqtisadiyyat quruculuğu:
# Azərbaycan üçün açılan imkanlar

***Rəqəmsal texnologiyaların inkişafı bəşəriyyət qarşısında tərəqqi üçün yeni üfüqlər açır. Hazırda dünya "SƏNAYE 4.0" - Dördüncü Sənaye İnqilabına qədəm qoyur. Bu istehsalın avtomatlaşdırılması, robotlaşma, süni intellektdən geniş istifadə, iqtisadiyyatın bütün sahələrində rəqəmsal texnologiyaların tətbiqi deməkdir. "SƏNAYE 4.0" rəqəmsallaşma, texnoloji infrastruktur quruculuğu ilə sıx bağlı olaraq ən fərqli sahələrdə yeniliklərin tətbiqinə və inkişafa gətirib çıxardır.***

Hazırda dünya ölkələri yeni inkişaf mühitinə qədəm qoyaraq rəqəmsallaşma istiqamətində yeni təşəbbüslər irəli sürürlər. Belə bir dövrdə rəqəmsal texnologiyaların tətbiqi, xüsusilə də iqtisadiyyatın rəqəmsallaşması və rəqəmsal iqtisadiyyatın qurulması ən çox müzakirə olunan məsələlərdəndir.

Texnoloji tərəqqi dünya üzrə müxtəlif regionlarda fərqli səviyyədə olduğundan dövlətlər də rəqəmsallaşma üzrə fərqli inkişaf səviyyəsinə sahibdirlər və ümumilikdə bir neçə qrupa bölünürlər. Belə ki, ölkələr rəqəmsallaşma üzrə liderlər, əsas qrup, geri qalanlar, yeni başlayan liderlər və rəqəmsallaşmada ötmə səviyyəsində olan dövlətlər kimi təsnif olunurlar. Əgər Cənubi Koreya, Danimarka, Böyük Britaniya, İsveçrə və Çin kimi dövlətlər liderlər kateqoriyasına, Almaniya, ABŞ, Yaponiya, Hindistan, Avropa İttifaqı ölkələri əsas qrupa daxildirlərsə, digər dövlətlər müvafiq olaraq geri qalanlar, yeni başlayan liderlər və rəqəmsallaşmada ötmə səviyyəsində olanlar kateqoriyasında aiddirlər.

Dünyada enerji və nəqliyyat mərkəzi olaraq tanınan, Avropa İttifaqı və bir sıra dövlətlərin enerji təhlükəsizliyinə öz töhfəsini verən Azərbaycan da artıq "SƏNAYE 4.0"a qədəm qoyur. Yeni dövr Azərbaycanın da qarşısında zamanın çağırışlarına cavab vermək, iqtisadi inkişafda yeni hədəflərə çatmaq kimi vəzifələr formalaşdırır. Sürətli inkişaf səviyyəsində olan dövlətlərdə olduğu kimi, ölkəmiz üçün də iqtisadiyyatın rəqəmsallaşdırılması, rəqəmsal iqtisadiyyatın qurulması, innovasiyaların tətbiqi prioritetlər sırasındadır. Hazırda Azərbaycan Respublikası iqtisadiyyatın rəqəmsallaşması, rəqəmsal iqtisadiyyatın qurulması və dayanıqlı inkişaf üçün bütün imkanlara sahibdir. Ölkəmizin yerləşdiyi unikal coğrafi mövqe, təbii resursları, həmçinin qiymətli insan resursları, eləcə də son illər ərzində cənab Prezident İlham Əliyev tərəfindən qəbul olunmuş Dövlət Proqramları, Sərəncam və Fərmanlar buna tam imkan verir.

Hazırda ölkəmiz İKT sahəsinin inkişafına görə dünya üzrə 65-ci yerdə qərarlaşıb və Cənubi Qafqaz ölkələri arasında liderdir. Beynəlxalq Telekommunikasiya İttifaqının (İTU) "State of Broadband Report 2018" sənədinə əsasən, Azərbaycan MDB məkanında internetin əhatə olunması, yayımına görə ilk yerdədir (79 %). Dünya Bankının "Doing Business 2019" hesabatında isə Azərbaycan Avropa və Mərkəzi Asiyada ən çox islahat aparan 10 ölkə sırasına düşüb və dünya üzrə 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb. İqtisadi və sosial sahələrdə aparılan geniş islahatlar Azərbaycanın beynəlxalq reytinqlərdə öncül mövqeləri əldə etməsi ilə nəticələnir.



*Fuad Allahverdiyev, "AzerTelecom" MMC-nin Baş icraçı direktoru "Azerbaijan Digital HUB" proqramının rəhbəri*

## Yeni İqtisadiyyat - Rəqəmsal iqtisadiyyat quruculuğu dayanıqlı infrastruktur ilə sıx bağlıdır

İqtisadiyyatın rəqəmsallaşması və rəqəmsal iqtisadiyyat quruculuğu dayanıqlı və təhlükəsiz infrastruktur quruculuğu ilə sıx bağlıdır. Çünki bir qayda olaraq dayanıqlı və təhlükəsiz infrastruktur olmadan həm iqtisadiyyatın rəqəmsallaşması, yeni iqtisadiyyatda, iqtisadi münasibətlərdə İKT-dən istifadə, həm də rəqəmsal iqtisadiyyata keçid və onun qurulması, yeni rəqəmsal texnologiyalar əsasında rəqəmsal məhsulların yaradılması - istehsalı mümkün ola bilməz. Məhz müasir texnoloji infrastruktur rəqəmsallaşmanın və rəqəmsal iqtisadiyyatın əsas komponentini təşkil edir. Hazırda dünyada sürətlə inkişaf edən Əşyaların interneti (IoT), 5G, robotlaşma, kibertəhlükəsizlik, süni intellektin tətbiqi sahələri də müvafiq magistral infrastrukturun qurulmasını və yenilənməsini tələb edir. Dayanıqlı sabit infrastruktur olmadan həm ölkələrarası, həm də ölkədaxili bağlantı (connectivity) xidmətlərinin qabaqcıl standartlara uyğun təmin edilməsi mümkün deyil. Hazırda dünya üzrə bağlantı xidmətləri sürətlə inkişaf edir. Həm mobil, həm də genişzolaqlı internet istifadəçilərinin sayı artır. Operatorlar hər ötən il infrastruktura yeni sərmayə yatırımı ehtiyacı ilə qarşılaşırlar. Böyük Britaniyanın telekom, media və texnologiya üzrə ixtisaslaşmış konsaltinq şirkəti olan "Analysys Mason"un məlumatına əsasən, 2014-cü ildən bəri operatorlar internet infrastrukturuna 300 milyard ABŞ dollarından çox sərmayə yatırıblar.

Araşdırmalar internetə qoşulan cihazların da sayında artımın olacağını göstərir. Məsələn, Mobil Operatorların Assosiasiyası olan "GSMA" təşkilatının "The Mobile Economy 2019" hesabatına əsasən dünya üzrə 2018-2025-ci illər dövründə Əşyaların interneti (IoT) bağlantılarının səviyyəsi üç dəfə artaraq 25 milyarda çatacaq. Bu dövrdə Əşyaların internetindən əldə olunan gəlir isə 4 dəfə artaraq 1.1 trilyon ABŞ dolları həcmində olacaq. Rəqəmsallaşma və infrastrukturun inkişafı mobil internet istifadəçilərinin də sayında artımın baş verməsi ilə nəticələnəcək. Hesabata əsasən, mobil internet istifadəçilərinin sayı 2018-ci ildə olan 3.6 milyard nəfərdən 2025-ci ildə 5 milyarda çatacaq.

Qeyd edilməlidir ki, rəqəmsallaşma və rəqəmsal iqtisadiyyat quruculuğu Azərbaycanda da İKT sahəsində dayanıqlı infrastruktur quruculuğu məsələlərini gündəmə gətirir. Beynəlxalq bağlantı xidmətlərinin təkmilləşməsi, internet xidmətindən hər il daha çox sayda insanın istifadə etməsi üçün sabit texnoloji bazanın təkmilləşməsi və yeni texnoloji infrastruktur quruculuğu vacib əhəmiyyət kəsb edir. Hazırda reallaşmasına start verilmiş və Azərbaycanın Regional Rəqəmsal Mərkəzə çevrilməsi üzrə icra edilən "Azerbaijan Digital HUB" proqramının da əsasında bu ideya dayanır. Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətinin törəmə müəssisəsi olan magistral internet provayderi "AzerTelecom" şirkəti tərəfindən icra olunan "Azerbaijan Digital HUB" proqramı çərçivəsində əsas istiqamətlərdən ən birincisi elə dayanıqlı infrastrukturun qurulmasıdır. Bu istiqamətdə şirkətimiz tərəfindən həm ölkə daxilində, həm də ölkə xaricində texnoloji infrastrukturun qurulması üçün işlər aparılır. "Azərbaycan Dəmir Yolları" QSC ilə apardığımız layihə ölkə daxilində dəmir yollarının mühafizə zolağı boyunca magistral fiber-optik kabel xətlərinin çəkilməsini və beləliklə də Şimal-Cənub, Şərq-Qərb istiqamətlərdə qonşu dövlətlərin telekom operatorları ilə şəbəkə bağlantılarının qurulmasını təmin edəcəkdir. "Digital HUB" proqramı çərçivəsində Avropa ilə Asiya arasında tarixi ipək yolunun üzərində yeni rəqəmsal ipək yolunun qurulması və bunun üçün Xəzər dənizinin dibi ilə Azərbaycan və Orta Asiya ölkələri arasında "Transxəzər magistralı"nın çəkilməsi isə ölkə xaricində magistral infrastrukturun qurulması layihəsinin tərkib hissəsidir. Bütün qeyd olunanların reallaşması həm Azərbaycan daxilində müasir dövrün tələblərinə cavab verən sabit texnoloji bazanın formalaşmasını, həm də Azərbaycanın artıq internet və kontentin Asiya regionu ölkələrinə ötürülməsində tranzit, sonrakı mərhələdə (Bakının İnternet Mübadilə Mərkəzinə çevrilməsi və Azərbaycanda Regional Data Mərkəzin qurulması ilə) artıq mərkəzi ölkəyə çevrilməsini təmin edəcək.

## "Azerbaijan Digital HUB" proqramı rəqəmsal iqtisadiyyat üçün əlverişli platformadır

"Digital HUB" proqramı Azərbaycanın gələcək inkişafı üçün təkcə infrastruktur baxımından yeni imkanlar yaratmır. Xüsusi qeyd olunmalıdır ki, bu proqram son nəticədə rəqəmsal ekosistemin formalaşmasını nəzərdə tutur. Çünki proqramın əsasını təşkil edən komponentlər arasında dayanıqlı infrastrukturun quruculuğu, bağlantı xidmətlərinin təkmilləşməsi ilə yanaşı həm də ölkəmizdə iri kontent operatorlarının (Facebook, Google, Netflix, Amazon, Alibaba, Tencent və s.) təmsil olunması, Regional Data Mərkəzin tikintisi, yeni iş yerlərinin formalaşması, kiçik və orta biznes subyektlərinin rəqəmsal biznes yönümündə inkişafı və gələcəkdə rəqəmsal xidmətlərin "Made in Azerbaijan" brendi altında ətraf regionlara ixracı da vardır. Bütün bunlar isə Azərbaycanda rəqəmsal ekosistemin formalaşmasına, rəqəmsal iqtisadiyyatın inkişafına, ölkəmizin beynəlxalq reytinqlərdə daha öncül pillələrə qalxmasına, innovasiya reytinqində irəliləməsinə və müvafiq olaraq ümumi daxili məhsulun artımına da şərait yaradacaq.

Araşdırmalar göstərir ki, rəqəmsal iqtisadiyyatın inkişafının ölkənin ÜDM-nin artımına mühüm təsiri vardır. Müxtəlif dövlətlərin iqtisadi inkişaf göstəricilərinə nəzər salsaq görərik ki, rəqəmsal sektorun Cənubi Koreya iqtisadiyyatında payı 12%, İsveçdə 8.6%, Finlandiyada 8,3%, ABŞ-da 7,4%, Böyük Britaniyada isə 7,1 %-dir. Dünya İqtisadi Forumunun məlumatına əsasən, növbəti onillikdə iqtisadiyyatda yaranan yeni dəyərin 70%-i məhz rəqəmsal platformalara əsaslanacaq. "Google"in proqnozlarına əsasən, təkcə Cənub Şərqi Asiyada rəqəmsal iqtisadiyyatın həcmi 2025-ci ilə qədər üççat artacaq və 240 milyard ABŞ dolları təşkil edəcək.

Hazırda ABŞ, Böyük Britaniya, Fransa, Norveç, Qətər, Çin, Rusiya kimi dövlətlər rəqəmsal iqtisadiyyat quruculuğuna xüsusi diqqət yetirir və bu istiqamətdə hətta xüsusiləşmiş orqanlar yaradaraq, milli proqramlar qəbul edirlər. Bu da rəqəmsal transformasiya proseslərinin daha çevik formada aparılmasını təmin edir.

Hazırda ölkəmizdə də aparılan islahatlar, dövlət və özəl sektor tərəfindən icra edilən mühüm proqramlar rəqəmsal iqtisadiyyat quruculuğu üçün mühüm baza formalaşdırır. Regionun Enerji və Nəqliyyat Mərkəzi statuslarına sahib olan Azərbaycanın artıq yeni dövrdə mövcud resurslardan, qabaqcıl dünya təcrübəsindən istifadə etməklə qısa zamanda rəqəmsal iqtisadiyyat qurmaq və Regionun Rəqəmsal Mərkəzinə çevrilmək imkanı vardır.

Müəllif haqqında: Fuad Allahverdiyev İKT sektorunda 20 ildən çox iş təcrübəsinə sahibdir. O müxtəlif startapların və telekommunikasiya sferasında bir sıra uğurlu şirkətlərin təsisçisi olub. F.Allahverdiyev iki nüfuzlu ali təhsil müəssisəsinin məzunudur, Bakı Dövlət Universitetini və M.V.Lomonosov adına Moskva Dövlət Universitetini (Executive MBA proqramı) bitirib. Hazırda F.Allahverdiyev "AzerTelecom" MMC-nin Baş icraçı direktorudur. "AzerTelecom" şirkəti Azərbaycanın sahib olduğu Enerji və Nəqliyyat Mərkəzi statuslarına əlavə olaraq ölkənin Regional Rəqəmsal Mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital HUB" proqramını icra edir. Fuad Allahverdiyev "Azerbaijan Digital HUB" proqramının rəhbəridir.

## Avqustda Dövlət Miqrasiya Xidmətinə 6700-dən çox əcnəbi və vətəndaşlığı olmayan şəxs müraciət edib

Bu ilin avqust ayı ərzində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyatı ilə bağlı Dövlət Miqrasiya Xidmətində (DMX) 81 min 861 müraciət qeydə alınıb. DMX-nin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ay ərzində quruma əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən ölkədə müvəqqəti olma müddətinin uzadılması, müvəqqəti və daimi yaşamaq üçün icazələrin alınması, vətəndaşlığa qəbul, bərpa, vətəndaşlıqdan çıxma, eləcə də vətəndaşlıq mənsubiyyətinin və qaçqın statusunun müəyyənləşdirilməsi, əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazələrinin alınması və mövcud iş icazələrinin müddətinin uzadılmasına görə isə 6762 müraciət daxil olub. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan qanunvericiliyinin tələblərinə uyğun araşdırılıb və müvafiq qərarlar qəbul olunub.

# Qurbanın siyasəti və ya öz siyasətinin qurbanı

*Yaxud separatçıların vəkili Qurban Məmmədov modeli*

***Doğrusu budur. Çirkin əməlləri və intriqabazlığı ilə cəmiyyətimizdə "adsan qazanmış" Qurban Məmmədov xarici ölkələrdə antimilli fəaliyyəti ilə özünün kimliyini, necə deyərlər, mənəvi-psixoloji portretini, bir daha tam çılpaqlığı ilə ortaya qoyan satqın və xəyanətkardır. Əməlli-başlı intriqalar ustası olan Q.Məmmədov ölkəmizdə həyata keçirilən uğurlu sosial islahat paketlərinin müsbət nəticəsinin əleyhinə gedərək, həyasızcasına və əxlaqsızcasına "qara piar kampaniyası" aparmaqla, Avropanın müxtəlif ölkələrində özgə qapılarında yallanan xəyanətkar və əxlaqsız "söyüş qrupu"na da, bu yolu davam etdirmək çağırışı edir. Bax, bununla da, Q.Məmmədov mənəviyyatsızlığın və deqradasiyanın pik nöqtəsində olduğunu, bir daha nümayiş etdirməkdədir.***

Bu satqın "vəkil" bütün etik-mənəvi dəyərləri tapdalayaraq, sərhədləri aşaraq ölkəsinə, millətinə, respublikamızın rəhbərliyinə, dövlət adamlarına şər-böhtan, təhqir yağdıran, adını azərbaycanlı qoyaraq, erməni dəyirmanına su tökən məlum başıpozuq dəstənin üzvlərini hər vəchlə müdafiə etməklə, əslində, öz simasını, daha doğrusu, simasızlığını bir daha ortaya qoyur. Vətən əxlaqından, torpaq təəssübündən çox-çox uzaq olan bu xəyanətkar qrant parazitlərini özünün "Azəri fredoom" "televiziyasına" çıxararaq uzun-uzadı mükalimələr qurması, debatlar, dialoqlar təşkil etməsi "həşəmətli vəkil" Q.Məmmədovun və onun "Azəri fredoom"unun anti-Azərbaycan dairələrin və erməni lobbisinin ölkəmizin əleyhinə yönələn yeni və məkrli bir layihəsi olduğunu tam çılpaqlığı ilə ortaya qoyur. Avropanın müxtəlif ölkələrində "siyasi mühacir" adı ilə məskunlaşaraq məişət rahatlığı, kamfort həyat tərzi naminə bütün ali dəyərləri tapdalayaraq, öz ölkəsinə və xalqına xəyanət edən, bu gün nəinki regionda, hətta bütün dünyada sülh, əmin-amanlıq və sabitlik adası olan ölkəmizi uzunmüddətli xaosa, vətəndaş qarşıdurmasına sürükləmək istəyən dairələrin maşasına çevrilən, müəyyən xarici xidmət orqanlarının tələsinə düşən həmin "sapı özümüzdən olan baltalar"la isti münasibətləri, onlara haqq qazandırması, hətta o marginllara "vəkillik" və "ağsaqqallıq" etməsi ağı qaradan, xeyiri şərdən ayırmağı yaxşı bacaran cəmiyyətimiz tərəfindən nifrət və ikrah hissi ilə qarşılanır. Müasir texnologiyanın üstünlüklərindən istifadə edərək



xəyanətkar və satqın bir zümrəni guya "mehriban" tərzdə "bir araya toplayaraq" avantürist və antimilli fikirlər səsləndirən bu qaragüruhçu "vəkil"in keçmiş əməllərini, çirkin işlərini üzünə şimal küləyi çırpanların sayı da gündən-günə artır. Bütün bunlar, hətta bu intriqabaz və avantürist "hüquqşünas"ın müəyyən vaxtlarda eyni "cəbhədə" olduğu bəzi dostları və əqidədaşları da etiraz edirlər. Sosial şəbəkələrdə Q.Məmmədova etiraz edənlərin sayı gündən-günə çoxalır.

## Vaqif Hacıbəyli: "Qurban Məmmədov intriqa və agent "ustasıdır"

Belə ki, bu günlərdə "Əhrar" partiyasının sədri, Müsavat partiyasının başqanı Arif Hacılının qardaşı Vaqif Hacıbəyli özünün "Facebook" səhifəsində yazır ki, intriqa ustası olan bu "hüquqşünas," hətta dövlətə və dövlətçiliyimizə xəyanət edən adamları cəmiyyətə qəhrəman kimi tanıdaraq ictimai rəydə çaşqınlıq yaratmaq istəyir. V.Hacıbəyli öz statusunda yazır: "Qurban Məmmədov 4 iyun qiyamı ilə bağlı debatları davam etdirir. Həmin debatlarda "Surətin sağ əli" Nazim Bayramov adlı bir xain də iştirak edir və ona hər dəfə "bəy", "hörmətli" kimi ifadələrlə müraciət edir. Ancaq unudur ki, bu adam milli qvardiyaçıların güllələnməsinə polkovnik Eldar Əliyevlə birlikdə rəhbərlik edib."

Şübhəsiz, özünü cəmiyyətə milli-azadlıq hərəkatının fəallarından biri kimi, eləcə də, təcrübəli vəkil kimi təqdim edən Q.Məmmədovun bu çirkin əməlləri, antimilli fəaliyyəti siyasi, hüquqi və etik-mənəvi normalara zidd olduğundan, iflasa məhkumdur.

## Q.Məmmədovun iç üzü...

Q.Məmmədov "Azərbaycan Xalq Hərəkatı"na "liderlik" iddiası ilə sabiq daxili işlər naziri İsgəndər Həmidovla "qoç döyüşü"nə çıxmaq istəyirdi. İş elə gətirdi ki, Q.Məmmədov İ.Həmidovu yaxalayınca, xəstəlik daha tez yaxaladı. Elə bil, bununla da, İ.Həmidov həyata keçirmək istədiyi "arzusuna" qovuşa bilmədi. Xəstəlik onun heç ayağa qalxmasına da imkan vermədi. Bu xəbərdən sonra separatçıların "vəkili" çırtma çalır. Ancaq bilmir ki, hər anın bir hökmü var. İndi özünü "ən layiqli lider" saydığını bildirən və uzun müddətdir ki, ermənipərəst qüvvələrin dəyirmanına su tökməklə məşğul olan bu satqın və xəyanətkar "vəkilin" son vaxtlarda sosial şəbəkələrdə daha fəal olmasının da səbəbi bəlli olub. Deməli, əlinə fürsət düşüb. Özü də Azərbaycanda reallaşdırılan inqilabi islahatların keçirilməsi, əldə olunan uğurlu nəticələr prosesi zamanı satqın "siyasi mühacir" Q.Məmmədovun məqsədi də "AXH"-yə "lider" olmaqla, ölkədə siyasi sabitliyi pozmaqdır. Ancaq satqın Q.Məmmədov anlamır ki, sosial şəbəkə vasitəsi ilə ölkəmizin əleyhinə apardığı "qara piar" kampaniyasının rəngini gündən-günə nə qədər tündləşdirsə də, heç nəyə nail ola bilməyəcək.

"Tövbə" cəmiyyətinin sədri Hacı Əbdül son günlər separatçı satqın "vəkil" Q.Məmmədovun "liderlik" iddiasına düşməsinə əsəbləşərək bildirib ki, yaxşı olardı ki, hər iki qardaş kim olduqlarını açıqlasınlar: "Onlarda üz var. Ancaq insafən, hər ikisinin üzü padoşdur. ADP-nin sədri Sərdar Cəlaloğlu və hazırda İngiltərədə sığınacaq alan satqın qardaşı Q.Məmmədov daima xarici dövlətlərin agenti olub, S.Cəlaloğlu da şeytana qulluq edən adam oldub. O özünə aid olmayan və bilmədiyi məsələlərə başını soxur. Onun bu cür hərəkətləri camaatı da çox narahat edir. Adını "müstəqil siyasətçi" qoyub, amma yüz yerə işləyir. S.Cəlaloğlunun heç partiya sədri səviyyəsində elektoratı yoxdur. Ona xüsusi vəzifə verilib. Bu vəzifə də müxalifəti parçalamaqdır. S.Cəlaloğlunu yalnız dırnaqarası müxalifət hesab etmək olar. O, əsl müxalifət deyil".

Hacı Əbdül, ümumiyyətlə, Azərbaycanda əsl müxalifətin olmadığını deyir: "Müxalifətçiyəm" deyənlərin hamısı satqın, əxlaqsız və qrant alverçiləridir. Satırlar və satılırlar. S.Cəlaloğlu ilə Q.Məmmədov bir bezin qırağıdır. Bir qardaş xaricdəki müxalifətə, ikinci isə ölkədəki müxalifətə nəzarət etmək üçün fəaliyyət göstərir. Buna görə onlara vəsait verilir. Bunlar müstəqil adamlar deyil, tapşırıq qullarıdır".

Şübhəsiz, özünü cəmiyyətə milli-azadlıq hərəkatının fəallarından biri eləcə də, təcrübəli vəkil kimi təqdim edən Q.Məmmədov bilməlidir ki, qaranlıq fəaliyyətinin qaranlıq sonu iflasa məhkumdur.

**R.HÜSEYNOVA**

# Siqaret qutusundan psixotrop maddə tapılıb



Siqaret qutusundan psixotrop maddə aşkarlanıb. Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildirilib ki, Cənub Ərazi Baş Gömrük İdarəsinin "Biləsuvar" gömrük postunda piyada yolla İrandan gələn Azərbaycan vətəndaşı saxlanılıb və üzərində yoxlama aparılıb. Nəticədə ona məxsus 1 ədəd "Kent" markalı siqaret qutusunun içərisindən 4 ədəd bükümdə, çəkisi 0,802 qram olan psixotrop maddə - metamfetamin aşkarlanıb. Xatırladaq ki, metamfetamin "Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilən psixotrop maddələrin I Siyahısı"na daxildir. Faktla bağlı araşdırma aparılır.



# Mitinqlə sosial şəbəkələrin ortasında qalanlar

**RƏFİQƏ**

***Bu, o müxalifətdir ki, böhtan atmaqla bir şey əldə edə bilmədi, o zaman sözü təkəndiyi üçün mitinq savaşını ortaya atdı, nəticədə, mitinq qovğası da müxalifət düşərgəsində ziddiyyətləri pik nöqtəsinə gətirib çıxardı.***

Ən maraqlısı 26 ilə yaxındır ki, keçirdikləri mitinqləri uğursuz və biabırçılıqla bitsə də, yenə də həyasızcasına "mitinq" deyib durdular və əttökən çıxışlarını sosial şəbəkələrdə paylaşaraq, özlərini hansısa xarici qüvvələrə göstərmək istədilər. Elə AXCP-nin sonuncu mitinqdə Ə.Kərimlinin "primadonnası" Gültəkin Hacıbəyli aksiyadakı çıxışının videogörüntüsünü paylaşaraq yazır ki, guya mitinq, beləcə "möhtəşəm" alınıb. Halbuki onun çıxışı zamanı stadionda ağız deyəni qulaq eşitmirdi. Gültəkinə, mitinq meydanında kimlərinsə onu eşitməsi, o qədər də maraqlı deyildi. Maraqlı olan xarici ölkələrdə fəaliyyət göstərən ermənipərəst qüvvələrin eşitməsi idi. Dəridən-qabıqdan çıxmaqda, hər cürə alçaqlığa getməkdə öz cılız ambisiyalarını və məkrli niyyətlərini reallaşdırmaq üçün milli maraqları heçə sayaraq, Azərbaycan əleyhinə fəaliyyət göstərməkdə, başqa, nə maraq ola bilərdi? Pul, pul, yalnız pul...

Ən nifrətedici məqam isə o idi ki, hər dəfə dövlət rəhbərinin verdiyi müvafiq fərman və sərəncamlarının mürəkkəbi qurumamış, başda sosial şəbəkənin kliyenti əxlaqsız, satqın Ə.Kərimli olmaqla, onun həndəvərində quyruq bulayıb-qısanlar dərhal hərəkətə keçir, istər sosial şəbəkələrdə, istər aksiyalarda "millət", "dövlət" bağırmaları ilə məhz xalqın və dövlətin rifahı üçün atılmış addımlardan açıq-aşkar, hətta ermənilərdən də betər şəkildə qıcıqlanırlar. Bu qıcıqlanma ilə həm də düşmənçilik mövqelərini nümayiş etdirirlər. Bu da, təəccüblü deyil. Şikəst təfəkkür, saxta əməl, baxan kor olmuş gözlər, kar olmuş eşidən qulaqlar. Çünki bir millətin səmərə görməsi üçün atılan addıma yalnız düşmən ağız əyər, Ə.Kərimli və onun siyasi "törəmələri" olan "siyasi mühacir"lər əydilər ağızlarını, hələ bir az da o tərəfə keçərək, dövlətin bu addımını özlərinin "qələbəsi" kimi təqdim etmək qədər arsızlıqla, həyasızlıqla, idbarlıqla və mitinq çağırışları ilə çağırışlar etdilər. Bax, budur şərəfsizlik, bax, budur əxlaqsızlıq! Bu xalqın, bu dövlətin haqqını yediyinizə görə, LƏNƏT OLSUN SİZİN İYLƏNMİŞ, ERMƏNİ ÜFUNƏTLİ CƏMDƏYİNİZƏ! "Belə şərəfsizlik edənlərin baş siyasi fahişəsi də, məhz elə Əli Kərimlidir! Bu o Ə.Kərimlidir ki, ölkəmizin son 16 illik uğurlu işlərinə, bu işlərdə DÖVLƏT-XALQ BİRLİYİNDƏN qaşınmaya düşən Ə.Kərimli yenə də yürüş edib, çox sevdiyi klaviaturasına və daxilindəki tükənməz ermənixislətliyini sosial şəbəkə vasitəsi ilə söndürməyə çalışsa da, heç nəyə nail ola bilməyəcək. Elə üfunət iyi verə-verə iylənib məhv olacaq, torpaq da onu qəbul etməyəcək. Çünki Ana torpaq müqəddəsdir. Müqəddəslik pakları qoynuna alır.

Bir də bu gəda tez-tez işlədir ki, hakimiyyət xalqdan qorxur. Ay bədbəxt, sənin gözlərin torlaşıb, qulaqların karlaşıb. Hələ də anlamırsan ki, hakimiyyət xalqdan "qorxmur", əksinə, xalqına xidmət edir, xalqının dərdinə sərinə yanır, xalqı üçün bütün imkanlardan istifadə edir və ona görə edir ki, XALQ HAKİMİYYƏTİN MƏNBƏYİDİR! İllər boyu rusun, farsın, ermənin, ingilisin, amerikalının, norveçlinin maşası, quyruqbulayanı ola, belə əxlaqsız və mənəviyyatını, bütünlüklə, qrantlara satan bir nakəsdən başqa, nəyi gözləmək olar?! Pul müqabilində mitinqə qatılan 2800-3000 nəfər qaragüruhçunu, şəkil çəkdirib, ondan arayış alaraq, Avropaya "siyasi mühacir" statusunda getmək istəyən tör-töküntüləri xalqla səhv salan Ə.Kərimli kimi nəsli, nəcabətini erməniləşdirən nacinsdən nə gözləmək olar? Əslində, ortada təəccüblənəcək heç nə yoxdur. Hakimiyyətin uğurlarını "müxalifətin qələbəsi" kimi zorla xalqa sırımaq yalnız bu siyasi "maşennikdən" çıxar. Bu siyasi "maşennik" və Avropadakı sülüngəclər sanırlar ki, mitinqlər etməklə, "hakimiyyət xalqla hesablaşacaq" iddialarını gerçəkləşdirəcəklər. Doğrudan da, bədbəxtsiniz! Hakimiyyət xalqla bir yerdə bu qələbələri qazanır. Həmin qələbələri ki, nəticədə, yüşürlərdən sosial şəbəkələrə keçən sizin kimi erməni üfunəti verənlər elə o üfunət içində boğula-boğula qalacaqsınız, nnecə ki, qalırsınız!

# Müxalifətin “siyasi mühacir” alveri

*Və yaxud hər cinayətin altından AXCP-Müsavat çıxır*

***Neçə illərdir ki, “siyasi mühacir” və “mühacir biznesi” adları altında müxalifət düşərgəsində tozanaq səngimək bilmir. 26 ildən çoxdur ki, AXCP və Müsavat partiyalarının dələduz rəhbərlikləri Əli Kərimli, İsa Qəmbər və Arif Hacı bu və ya digər şəkildə onlara müraciət edən şəxslərə saxta arayışlar təqdim edərək, guya Azərbaycanda siyasi fəaliyyətlərinə görə təqib olunduqları haqda yalanına imza atır, bunun müqabilində “siyasi mühacir” bizneslərini, necə deyərlər, inkişaf etdirirlər.***

Bununla da, Avropada baş verən hadisələrin törədiciləri ya Ə.Kərimlinin, ya İ.Qəmbərin, ya da A.Hacılının “yastığı altından” çıxanlar olur. Əslində, dəfələrlə sübuta yetirilib ki, Avropaya bu kimi saxta adlar altında köçənlərin əksəriyyəti müxtəlif cinayət əməlləri törədən şəxslərdirlər ki, onlar köçdükləri ölkələrdə də bu fəaliyyətlərini davam etdirərək, bənzər cinayətlərini təkrarlayırlar.

## “Siyasi məhbus” adı ilə Avropada cinayətkara çevrilənlər

İstər Ə.Kərimli, istər A.Hacılı və yaxud da İ.Qəmbər kimilərin törətdikləri cinayətkarların verdikləri saxta mühacir sənədlərin sahibləri də cinayətkar olacaq. Məhz buna görə də, bu gün Azərbaycanda müxtəlif cinayətlər törədən şəxslərin dərhal “siyasi məhbus” siyahılarına salınmaları kimi hallar daha ağır fəsadlara yol açır. Belə şəxslər azadlığa çıxdıqdan dərhal sonra bu ad altında xarici ölkələrə köçür, sonradan cinayətkar əməllərin, hətta göründüyü kimi, qətl hadisələrinin, bilavasitə iştirakçılarına çevrilirlər. Görünən isə budur ki, bu gün baş verən hər hansı hadisələrin hər birinin günahı “siyasi mühacir” adı ilə alver edən AXCP, Müsavat və s. siyasəti bazara çevirən partiya rəhbərlərindədir. Bir gün onlar da baş verənlərə görə, qanun qarşısında cavab verməli olacaqlar.

## <u>Elbəyi Həsənli:</u> “Son 6 ayda 483 vətəndaşa Müsavat üzvü olmaqla bağlı saxta arayış verilib”

Müsavatın “siyasi mühacir” alverinin miqyasını ifşa edən “Yeni Müsavat” qəzetinin yazarı olmuş Elbəyi Həsənli öz “Facebook” statusunda qeyd edib ki, A.Hacılının rəhbərliyindəki komanda son 6 ayda 483 vətəndaşa Müsavat üzvü olmaqla bağlı arayış verib: “Bəllidir ki, Azərbaycanda nə dövlət, nə də özəl idarələrə belə arayış gərək deyil. Bu arayışların yalnız mühacirət üçün gərəkli olduğu hər kəsə bəllidir. Çox istərdim ki, Müsavat partiyası “6 ayda 483 arayış”la bağlı rəsmi açıqlama versin”.

E.Həsənli, bundan başqa öz “Facebook” statusunda belə yazıb: “Mənə Müsavat partiyasına görə oturum verseydilər belə, burada qeyri-adi bir şey olmazdı. Ən azı, mən partiya sıralarına daxil olduqdan 9 il sonra Avropaya üz tutmuşam. İndikilər bəzən 9 saat ərzində partiya vəsiqəsi, arayış və İ.Qəmbərlə foto əldə edib Avropaya yollanırlar. Təbii ki, müvafiq ödənişdən sonra”.

## <u>Sahib Alıyev:</u> “Yazıqlar olsun saxta “siyasi mühacir” sənədi verənlərə də, onu alanlara da”

Müxalif düşərgədə baş verən bu rüsvayçı olaya münasibətini bildirən millət vəkili Sahib Alıyev qeyd edib ki, Qərbdəki bəlli çevrələrin tapşırığıyla Azərbaycanda keçirilən genişmiqyaslı tədbirləri boykota səsləyən Müsavatın onların önündə müxalifət partiyası kimi tanınmaq istəməsində, ancaq bir məqsədi var - qrant almaq: “Sən demə, bu, belə deyilmiş. Qərbdəkilərin AXCP-ni müxalifət partiyası kimi tanıması, həm də ona başqa gəlir mənbələri verirmiş. Partiya mühacir “biznesi”nə də girişibmiş. Yəni Avropada sığınacaq almaq istəyənlərə bəlli bir məbləğ qarşılığında vəsiqə verilirmiş ki, o, “cəbhəçilərdəndir”. Müsavatda da durum eynidir. Yazıqlar olsun saxta “siyasi mühacir” sənədi verənlərə də, onu alanlara da”.

## Əli Kərimlinin “siyasi məhbus” mafiyasında “yorğan” davası

Ə.Kərimlinin “siyasi məhbus” mafiyasında “yorğan” davasında məqsəd toplanan pulların çox hissəsini ələ keçirməkdir. Belə ki, Azərbaycanın Niderland səfirliyində çalışmış, daha sonra Avropada sığınacaq almaq üçün ölkəsinə üz çevirən Nahid Cəfərov “siyasi məhbus” adlandırılan məhkumlara göndərilən pulların Ə.Kərimli tərəfindən “yeyildiyini” açıqlayıb. N.Cəfərov deyir ki, həbsdə olan Tofiq Həsənliyə göndərilən pulların bir qismi yoxa çıxıb: “Bu pulları Ə.Kərimli mənimsəyib. Ə.Kərimli bu biznesdə bir mexanizmlə işləyir: “Pulunu ver, siyahıya düş”.

Bu mexanizmlə Leyla Yunus da işləyir. 2016-cı ilin sonu 2017-ci ilin əvvəllərində “siyasi məhbus” məsələsinə görə, AXCP və Müsavat rəhbərliyi, o cümlədən, Xədicə İsmayıl bir-birinə qarşı sosial şəbəkələrdə ciddi ittihamlar irəli sürürdü. Həmin ərəfədə Cahangir Hacıyevin də adının “siyasi məhbus” siyahısına salınması məsələsi gündəmə gəlmişdi. O.Güləliyev iddia edirdi ki, “Əsas götürdüyümüz meyar siyasi məhbuslarla bağlı AŞPA-nın 3 oktyabr 2012-ci il tarixli 1900 saylı Qətnaməsində qeyd edilən kriteriyalardır. Əgər Cahangir Hacıyevin həbsi həmin kriteriyalara uyğun gəlirsə, o da digərləri kimi, siyasi məhbus kimi tanına bilər”.

## <u>Xədicə İsmayıl:</u> “Leyla Yunus və Oqtay Güləliyev, hətta terrorçuları da “siyasi məhbus” siyahısına salırlar”

AXCP-nin keçmiş üzvü Rəşad Babalı isə daha açıq etiraflar etməklə, konkret kimlərin adının pul qarşılığında siyahıya salındığını açıqladı: “Daha uzun siyahı, daha çox pul: AXCP, Müsavat, o cümlədən, “siyasi məhbus” biznesində iştirak edənlər Azərbaycanda 150-dən çox “siyasi məhbus” olduğu iddiası üzərində həmişə israrla dayanırlar. Hətta son Əfv Sərəncamı ilə adı hüquq müdafiəçilərinin siyahısına düşmüş 50-dən çox məhkumun azad edilməsi də, belə onların “siyahısını” azaltmadı. Ə.Kərimli hər çıxışında “siyasi məhbus”ların yarıdan çoxunun hələ də həbsxanada qaldığını və onların əksəriyyətinin AXCP üzvü olduğunu iddia edir. Bununla yanaşı, Nardaran işinə görə həbs edilənlərin də müdafiəsini israrla üzərinə götürür. İlk baxışda, Kərimlinin “ürəyiyumşaq” olduğu görünə bilər, lakin məsələnin qaranlıq üzü qaranlıq maxinasiyalardan xəbər verir. Birincisi, Kərimli Nardaran işinə görə həbs edilənləri müdafiə etməklə, onların bağlı olduğu dini dairələrdən dəstək alır. İkincisi, “daha uzun siyahı, daha çox pul” prinsipindən irəli gəlir. Siyahı məsələsində bu qruplar, hələ iki il öncə özlərini ifşa etmişdilər. Məsələ belə idi ki, X.İsmayıl Azərbaycanda “94 siyasi məhbus”un adının olduğu siyahı hazırlamışdı, L.Yunus və “Milli Şura”nın koordinasiya mərkəzinin üzvü O.Güləliyev isə “166 nəfərlik siyahı” tutmuşdu. Bu şişirdilmiş iki fərqli siyahı onları çətin vəziyyətə salmaqla yanaşı, “daha uzun siyahı daha çox pul” demək olduğunu da təsdiqlədi. Hətta Kərimli və dəstəsi onlardan kənar siyahı hazırladığı üçün X.İsmayıla qarşı kütləvi hücum da təşkil etdilər. X.İsmayıl bu haqda yazırdı: “Özünü “demokrat” adlandıran Ə.Kərimli ən xırda tənqidə belə tab gətirməyərək, “facebook” briqadasını mənim üstümə göndərib və məni “əmək itirən” quldar kimi qələmə verir”.

## Əli Kərimlinin “Obşak” sistemi, yaxud toplanan ianələrin naməlum taleyi

Xədicə İsmayıl Ə.Kərimlinin onu “əmək itirən” quldar kimi qələmə verməsindən əsəbləşərək bildirib ki, “siyasi məhbus” biznesinin mənbəyi təkcə ayrılan pullar yox, həm də Avropadakı azərbaycanlılardan toplanan ianələrdir: “Bunu həbsxanadakı “obşak” sistemi ilə müqayisə etmək olar. Avropaya “siyasi mühacir” adı ilə gedənlər “siyasi məhbus”lara dəstək üçün yaradılan bank hesablarına aylıq müəyyən vəsait köçürürlər və əksər vaxt bunun məcburi olduğu deyilir. Bundan imtina edənlər miqrasiya qurumlarına şikayət edilmək və deportasiyaya məruz qalmaqla təhdid olunurlar. Bu prosesi AXCP və Müsavat partiyaları ayrılıqda həyata keçirir. Ə.Kərimlinin “obşak”ına Qənimət Zahid nəzarət edir. Müsavatın “obşak”ına isə partiyanın Avropa koordinasiya mərkəzi tərəfindən nəzarət edilir. Ötən ilin sonlarında Qurban Məmmədovun “siyasi məhbuslara dəstək” kampaniyasına edilən yardımların mənimsənildiyi, buna görə də, Avropada yaşayan azərbaycanlıları bu kampaniyaya qoşulmamağa çağırışı da bunu təsdiqləyirdi. Q.Məmmədovun çağırışına cavab Ə.Kərimlinin “Azadlıq” qəzetindən gəldi və qəzet “siyasi məhbus” adlandırdıqları şəxslərin ailələrinin dilindən Məmmədova qarşı tənqidi fikirlər yayımladı. Bunun özü də Məmmədovun Kərimlinin “siyasi məhbus” biznesinə “çomaq” uzatdığını sübut edir. Bu qədər hay-küy heç də səbəbsiz deyilmiş! Ona görə də, bu gün Ə.Kərimli, A.Hacılı və İ.Qəmbər haqqında nə deyilirsə, doğrudur”.

**Rəfiqə HÜSEYNOVA**

---



**Təhmasib Novruzov**

## Cavabı özündə olan suallar

***Məni çox düşündürür ki, bu Avropanın bəzi-bəzi siyasiləri, bəzi-bəzi siyasiləşmiş QHT-ləri və bəzi-bəzi mediya qurumları nədən Azərbaycana bu qədər aqressiv münasibətdə bulunurlar? Oxucum dərhal deyəcək ki, erməni diasporasının təsirindən çıxa bilmədiklərinə görə. Burası bəllidi. Amma məncə, hayların diasporası bu qədər güclü ola bilməz ki, açıq-aşkar həqiqətləri dünyanın fövqəldövlətlərinə dandıra bilsinlər. Qandıqlarına rəğmən, bu fövqəlgüclər haqqı danırlarsa, bunu təkcə beş-üç dığanın fəaliyyəti kimi başa düşmək, zənnimcə, yanlışdı.***

Budəfəki söhbətimizi də elə bu mövzuya həsr eləmək istəyirəm: axı, Avropa bizdən nə istəyir ki, onu almaq üçün bu qədər beynəlxalq və bəşəri haqqı ayaq altına almaqdan belə çəkinmir? Neft və qaz istəyirdilər, kəmər inşa elədik. Rusiyadan kənar yol arzusunda idi, onu da reallaşdırdıq. Belədə Avropanın başqa hansı istəyi var ki, onu da reallaşdıraq? Demokratiya? Söz azadlığı? İnsan hüquqları? Bəlkə bizim ölkədə insan hüquqları Fransadan, İtaliyadan, İspaniyadan, daha bilmirəm, hansı ölkələrdən az qorunur? İnformatika əsrində, bütün ölkələrdə baş verənlərdən hər kəsin evindəcə xəbər tuta bildiyi bir zamanda, Avropada pozulan hüquqları görməzdən gəlib, bizdən daha irəli gedən demokratiya tələb olunması absurd deyilmi? Elə isə bu demokratiya “ixracı”nda Qərbin məqsədi nədir, görəsən? Özündə olmayanı başqa ölkədən tələb etmək, əslində, boş kanteynerləri hansısa alıcı ölkəyə ixrac etməyə bənzəmirmi?

Yazıq oxucu! O qədər suallar verdim ki, bilməyəcək hansına cavab versin. Əslində, bu sualların cavabları da məlumdur. Hamısının bir cavabı var: Avropa gücləri Osmanlı, ardınca isə Sovetlər Birliyi təsirindən qurtulduqdan sonra, fürsəti fövtə verməyib, dünyanı öz təsiri altına almağa can atır. Bunun üçün də Avropa ilə Asiyanın qovşağında qərarlaşan, gün-gündən inkişaf edən, hərbi, siyasi və iqtisadi baxımdan, əksər Avropa və Asiya ölkələrini geridə qoyan Azərbaycana təzyiqi gücləndirmək, onun inkişafına əngəl olmaq, təsir dairəsinə salıb müstəqil xarici siyasət kursunun istiqamətini dəyişib qərbyönümlü siyasi kursa məcbur etmək! İndi də 150-200 il əvvəlki zaman deyil ki, hərbi gücünü işə salıb Azərbaycanı zorla özünə tabe elətdirib, vassalına çevirsin. İndi XXI əsrdir. Təsir altına salmaq istədiyin ölkəyə iqtisadi sanksiyalarla, informasiya hücumları ilə, nəhayət “demokratiya” oyunları ilə təzyiq göstərib, tabe olmaq məcburiyyəti qarşısında qoymaq ən optimal variantdır. Bu baxımdan, artıq püxtələşən Avropa bütün gücü ilə Azərbaycanı təzyiq altında saxlamağa çalışır. Burası aydın oldu. O da aydındır ki, bu məqsədini reallaşdırmaq üçün Qərb əzəli və əbədi düşmənimizdən - ermənilərdən istifadə edir. Həm Türkiyəyə, həm də Azərbaycana qarşı bir silah kimi dığalar toplumunu əlində möhkəm-möhkəm tutan Qərb erməni yalanlarını həqiqət kimi gözlərə dürtməyə can atır, amma Azərbaycan və Türkiyə gerçəklərini görməzdən gəlir. Yuxarıda dediklərimi təkrarlamağa ehtiyac görmürəm və həmin dediklərimdən Qərbin bu siyasətində məqsədinin nədən ibarət olduğu aydın olur. Nəhayət, aydın olmayan bircə odur ki, bizimlə eyni millətdən olan, bizimlə eyni havanı udub, eyni suyu içən bəzi dığakimilər bu həqiqəti dərk emirlər, yoxsa avro, dollar gözlərini tutub və açıb görmək istəmirlər? Oturub oyun quranların qucağında, ölkəsinə qara yaxan, ölkəsinin siyasilərini təhqir edən, şər-böhtan dolu “Makedoniyalı İskəndər tütəyi”ni püfləməkdən zövq alan buqələmunlar, haçansa əməllərinin ümumən Azərbaycan dövlətçiliyinə, milli mənafelərimizə vurduğu zərbəni hesablayacaqlarmı? Daha doğrusu, hesablamağa gücü çatan bir komputer tapa biləcəklərmi?

Yenə suallarla oxucunu yordum. Amma yenə bu sualların da cavabı elə özündədi. Bir az düşünsəniz, cavabın özünü axtarmağa heç ehtiyac da qalmayacaq. Mən sözümü deyib qurtardım. Düşünmək və cavabı özündə olan sualların mənasını anlamaq qalır hörmətli oxucumun öhdəsində. Yetər ki, bir az, rəhmətlik Sabir əfəndimiz demişkən, “xatiri qəmmailinizi” bu suallara məşğul edəsiniz...

# Regional və universal səviyyələrdə insan hüquqlarının qorunması

***Həm regional, həm də universal səviyyədə insan hüquqları sahəsində beynəlxalq hüququn dinamik inkişafı əhatəli hüquq külliyyatının meydana gəlməsini şərtləndirmişdir. Daşqın Qəmbərov yazır: "İnsan hüquqları haqqında yüzə yaxın beynəlxalq Konvensiya qəbul olunmuşdur ki, onların da böyük əksəriyyəti, artıq hüquqi qüvvəyə malikdir. İnsan hüquqları sahəsində normativ bazanın belə əhəmiyyətli inkişafı beynəlxalq ümumi hüququn ayrıca bir istiqamətinin meydana gəlməsi haqqında fikir formalaşdırmışdır. Bu yeni istiqamət insan hüquqları sahəsində beynəlxalq hüquq kimi nəzərdən keçirilir. İnsan hüquqları haqqında sənədlərdə geniş tətbiq olunan və dörd kateqoriyadan müqavilələri fərqləndirən təsnifatı nəzərdən keçirməklə insan hüquqları sahəsində tənzimləyici sisteminin sərhədləri haqqında təsəvvürlərə malik olmaq mümkündür:***

Birincisi, ümumi xarakterli Konvensiyalar. Belə Konvensiyalar, demək olar ki, regional və qlobal səviyyədə qəbul olunmuş bütün insan hüquqlarına aiddirlər. Bu sıradan Konvensiyalara BMT Paktını, Avropa və Amerika Konvensiyaların, Afrika Xartiyasının və s. aid etmək mümkündür.

İkincisi, konkret məsələlər üzrə Konvensiyalar. Bu Konvensiyalar insanın genosid, hərbi cinayətlər, insanlığa qarşı cinayətlər, köləlik, insan alveri və s. məsələlərlə bağlı konkret hüquqlarının qorunmasını nəzərdə tutur.

Üçüncüsü, qrupların müdafiəsi haqqında Konvensiyalar. Belə Konvensiyalar ayrı-ayrı qrupların tələbatlarına uyğunlaşdırılır. Belə qruplar qismində qaçqınlar, miqrantlar, qadınlar, uşaqlar, əsir düşmüşlər və s. nəzərdən keçirilə bilər.

Dördüncüsü, irqi, cinsi əlamətlərə görə, həmçinin, təhsil, əmək və məşğulluq sahələrində diskriminasiyaya aid olan Konvensiyalar.

Yuxarıda qeyd etdiklərimizdən başqa, beynəlxalq hüququn insan hüquqları sahəsində bir sıra normaları bütün beynəlxalq ictimaiyyət üçün məcburi olan imperativ normalar kimi nəzərdən keçirilir. Eyni və ya oxşar xarakterli beynəlxalq hüquq norması ilə əvəz olunmadığı halda, bu normalardan imtinaya yol verilmir."

Beynəlxalq ümumi hüquqda insan hüquqlarının tənzimlənməsinin geniş miqyasları da Beynəlxalq İnsan Hüquqları Kodeksinin meydana gəlməsindən xəbər verir. Beynəlxalq Kodeksdə tənzimləyici normaların mahiyyətindən çıxış edərək, aşağıdakı bölmələri fərqləndirmək olar:

-ümumi deklarasiyadan ibarət olan preambula;

-BMT paktları və ümumi xarakterli regional Konvensiyalardan ibarət olan ümumi hissə;

-çoxsaylı müfəssəl müqavilələrdən ibarət olan xüsusi hissə.

D.Qəmbərov daha sonra yazır: "Qeyd etdiklərimizdən başqa, insan hüquqları sahəsində geniş "yumşaq hüquq"un təsirini nəzərdən keçirmək olar. Bu, qətnamələr, tövsiyələr, davranış kodeksləri, minimal standart qaydaları, rəhbər prinsiplər və s. kimi sənədlərdə ifadə olunur. Qeyd edək ki, bu sənədlər məcburi xarakter daşımırlar. Əksər hallarda insan hüquqları sahəsində siyasətin rəhbər prinsiplərini ifadə edirlər. Bununla yanaşı, onlar, həmçinin, müxtəlif funksiyaları yerinə yetirirlər. Bəzən isə, bu sənədlər əsl normativ-hüquqi əsasların yaranması istiqamətində ilkin addım kimi nəzərdən keçirilir. Bu, ondan xəbər verir ki, "yumşaq hüququ" təşkil edən sənədlərin əhəmiyyətini azaltmaq olmaz. İnsan hüquqlarının müdafiəsi müasir demokratik-hüquqi dövlətlərin başlıca öhdəliklərindən biridir. Hazırkı mərhələdə insan hüquqlarının qorunması problemi milli sərhədləri aşaraq, qlobal mahiyyət kəsb etməkdədir. Təsadüfi deyildir ki, insan hüquqlarının müdafiəsi məsələsi bir dövlətin və ya ayrı-ayrı dövlətlərin sərhədləri daxilində deyil, beynəlxalq müstəvidə həllini tapmalı olan problem kimi nəzərdən keçirilir. Bunu sübut edən başlıca məqam, ondan ibarətdir ki, müasir mərhələdə insan hüquqlarının müdafiəsinin universal və regional sistemləri tam formalaşmışdır və kifayət qədər səmərəli fəaliyyət göstərirlər. İnsan hüquqlarının universal və regional müdafiəsi sistemləri kifayət qədər mürəkkəb və uzun inkişaf yolu keçmişlər."

İnsan hüquqlarının əsl mahiyyəti, xüsusiyyətləri və sərhədləri yalnız İkinci Dünya müharibəsindən sonra müəyyənləşməyə başlamışdır. İnsan hüquqları kateqoriyası, demək olar ki, bütün səpkili müzakirələrin obyektinə çevrilmişdir. Belə ki, təkcə hüquq sahəsinə aid olan praktiki məsələləri əhatə edən debatlarda deyil, həmçinin, siyasi, mənəvi və dini xarakteli məsələlərin müzakirəsi zamanı da insan hüquqları əsas diqqət mərkəzində olmuşdur. İnsan hüquqları ilə bağlı ən müxtəlif yanaşmalarda, artıq ciddi şəkildə əsaslandırılmışdır ki, müasir insan hüquqları konsepsiyasının kökləri "hüquqi qanunsuzluq" dövrünə gedib çıxır. "Hüquqi qanunsuzluq" dövrünün səciyyəvi xüsusiyyəti ondan ibarət idi ki, qanunun sanksiyaları əsasında cinayətlər törədilirdi. İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının meydana gəlməsi, məhz belə təcrübəyə cavab reaksiyası kimi qəbul oluna bilər. İnsan hüquqları konsepsiyasının qəbul olunması insan hüquqlarının təkcə beynəlxalq hüquq çərçivəsində deyil, ümumiyyətlə, bütün sahələrdə dərk edilməsinin istinad nöqtəsi rolunda çıxış etmişdir. İnsan hüquqlarının geniş miqyasda pozulması səbəbləri, məhz bu insan hüquqları konsepsiyası çərçivəsində izah olunur. İnsan hüquqlarının pozulmasının qarşısının alınması insan hüquqları konsepsiyasının əsas məğzini təşkil edir. Hər bir şəxsiyyətin unikal dəyərini dərk və qəbul edən beynəlxalq ictimaiyyət insanın sərbəst mövcud olacağı və inkişaf edəcəyi şəraitin yaradılmasını ən vacib məsələ kimi müəyyənləşdirmişdir. Yəni insan hüquqlarının qorunmasının işlək, səmərəli normativ-hüquqi əsaslarının yaradılması İkinci Dünya müharibəsindən sonra, beynəlxalq ictimaiyyətin fikrini, onu çox məşğul edən məsələlərdən birinə çevrilmişdir.

İnsan hüquqlarının qorunması məsələsi, demək olar ki. tarixi inkişafın bütün mərhələlərində aktual olmuşdur. Əksər tarixi abidələr də sübut edir ki, dövrünün müdriklərini həmişə insan hüquqları problemi narahat etmişdir. Tarixin müxtəlif dövrlərində insan hüquqlarına dair çoxsaylı yanaşmaların və fikirlərin mövcud olmasına baxmayaraq, bu sahə yalnız İkinci Dünya müharibəsindən sonra ayrıca istiqamət kimi formalaşmışdır. İnsan hüquqlarına beynəlxalq hörmət prinsipi insan hüquqlarının qorunması sahəsində normativ-hüquqi bazanın formalaşdırılmasını və inkişaf etdirilməsini zəruri etmişdir.

D.Qəmbərovun fikrincə, insan hüquq və azadlıqlarının ötən əsrin ikinci yarısınadək beynəlxalq tənzimlənməsi prosesini qiymətləndirməklə, belə qənaətə gəlmək olur ki, o, milli hüquq sisteminin formalaşması və təkmilləşdirilməsi dinamikasında inkişaf etmişdir. İnsan hüquqlarına ümumi və ya beynəlxalq hörmət prinsipinin meydana gəlməsi insan hüquqları problemini qlobal müstəviyə keçmişdir.



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qeyd edək ki, insan hüquqlarının beynəlxalq müdafiəsi ilə məsələ BMT-nin formalaşması dövründə ciddi aktuallıq kəsb etməyə başlamışdır. Bunu isə, təbii ki, İkinci Dünya müharibəsi zamanı insan hüquqlarının total və kobud şəkildə pozulması şərtləndirmişdir.

Ümumiyyətlə, tarixin müxtəlif dövrlərində insan hüquqlarına hörmətin formalaşmasının əlamətləri müşahidə olunmuşdur. Belə ki, bildiyimiz kimi, insan hüquqları sahəsində ilk sənəd Böyük Azadlıq Xartiyası olmuşdur. Qeyd edək ki, Böyük Azadlıq Xartiyasının qəbul olunduğu tarixi şərait özünün səciyyəvi xüsusiyyəti ilə yadda qalmışdır. Belə ki, həmin dövrdə kral hakimiyyəti ilə onun özbaşınalıqlarının məhdudlaşdırılmasını tələb edən hakim təbəqələr arasında ciddi siyasi toqquşma mövcud idi. Tarixin sonrakı dövrlərində də insan hüquqlarının qorunması məsələsi mühüm sənədlərdə əksini tapmışdır. Bunlardan ən mühümü kimi 1689-cu ildə İngiltərədə qəbul olunmuş "Hüquqlar Haqqında Bill"i (The Bill of Rights) qeyd etmək olar. Bu sənədin qəbul olunması, əsasən, kral hakimiyyətinin məhdudlaşdırılmasına yönəlmişdir. Sənəd söz azadlığı, parlamentdə sərbəst müzakirələr imkanını nəzərdə tuturdu. B.V.Kurin göstərir ki, beynəlxalq hüquqi sənədlərdə insan hüquqlarının müəyyən standartların əks olunmuşdur ki, bu da, bu sahədə uzunmüddətli təkamülün nəticəsi kimi qiymətləndirilə bilər. Diqqəti cəlb edən əsas məqam, həm də ondan ibarətdir ki, insan hüquqları standartlarının formalaşması ilə demokratik cəmiyyətin inkişafı arasında ciddi bağlılıq mövcuddur və bu iki proses biri-birini tamamlayır. İnsan və vətəndaş hüquqlarının genişlənməsinin milli və beynəlxalq hüquq normalarının inkişafının məntiqi nəticəsi olması müasir dünyanın səciyyəvi cəhəti kimi qiymətləndirilə bilər.

Avropada insan hüquqları nəzəriyyəsinin inkişafında Böyük Fransa İnqilabının əhəmiyyətli təsiri olmuşdur. Belə ki, məlum olduğu kimi, inqilab bərabərlik, qardaşlıq və ədalət prinsipləri üzərində yeni cəmiyyətin formalaşdırılması ideyasını irəli sürürdü. Bu müddəalar 1789-cu ildə qəbul olunmuş "İnsan və vətəndaş hüquqları deklarasiyasında" əks olunmuşdur. Deklarasiyanın məzmunu intibah dövrünün azadlıq, bərabərlik, xalq suverenliyi, ictimai müqavilə, qanunun aliliyi və insan hüquqları kimi humanist ideyalarını əks etdirirdi.

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*

səs

Son səhifə 13 sentyabr

## Ürək xəstəliklərindən qorunmaq üçün bunlara əməl edin!



Ürək xəstəliklərindən uzaq olmaq üçün əsas prinsip sağlam və düzgün qidalanma üsuludur. Bunun üçün heyvanı yağlardan, imtina, mümkün olduğu qədər xörəkləri zeytun yağı ilə hazırlamaq, rasionda qoyun ətini azaltmaq, xolesterinlə zəngin olan qidaları qəbul etməmək lazımdır. Ürəyində problemi olanlar əsasən balıq və toyuq əti, həftədə bir-iki dəfə yağsız mal əti və meyvə-tərəvəzlərlə qidalanmalıdırlar.

AZƏRTAC xəbər verir ki, Respublika Neyrocərrahiyyə Xəstəxanasının həkim-kardioloqu Nərgiz Məmmədovanın dediyinə görə, hər gün azı 45 dəqiqə idman etmək lazımdır: "İdmanı nə vaxt etmək barədə xüsusi qayda olmasa da, səhərlər idman etmək məsləhət görülmür, çünki ürək problemləri və hipertonik krizlər səhər saatlarında olur. Axşam yeməyindən 2 saat əvvəl, diabet xəstələrinə isə axşam yeməyindən 2 saat sonra idman etmək tövsiyə edilir. Piyada gəzmək çox faydalıdır, lakin bunu aktiv sürətlə etmək lazımdır. 45 yaşından yuxarı olanlar idman etməyə başlamazdan əvvəl mütləq həkim müayinəsindən keçməlidirlər, çünki ürək damarlarında problemi olanlar idman edərkən infarkt və ya ani ölüm keçirə bilərlər".

O, daha sonra deyib: "Yemək zamanı duzun miqdarını gözləmək çox vacib məsələdir. Duza olan gündəlik tələbat 6 qramdır və onun bir hissəsi çörəklə qəbul edilir. Çox çörək yedikdə qəbul edilən duzun miqdarı da artır. Eyni zamanda, konserv və bütün yeməklərin tərkibində duz var. Ona görə də ilk növbədə, duzu qidadan çıxarmağa çalışmaq lazımdır. Qan təzyiqi varsa, duzun qəbulunu daha da azaltmaq, gün ərzində 2-3 qram duz qəbul etmək məsləhətdir. Çoxlu duz qəbul etmək qan təzyiqinin yüksəlməsinə səbəb olan ən başlıca amillərdəndir".

## Uşaqlarda görmə problemləri



Son altı il ərzində ölkəmizdə 13 yaşadək uşaqlar arasında göz xəstəliklərindən əziyyət çəkənlərin sayı artıb. Ötənilki statistikaya görə, hər 10 min uşaqdan 125-nin görmə problemi var.

Bu barədə AZƏRTAC-a məlumat verən Bakı Baş Səhiyyə İdarəsinin Baş Oftalmoloqu Sevda Beşirovanın dediyinə görə, körpələr dünyaya gələrkən həkim tərəfindən ilkin olaraq göz müayinəsi aparılmalıdır. Körpə yarımçıq doğulub və küvezdə oksigen yardımı alıbsa, onda mütləq şəkildə göz dibi müayinəsi aparılmalıdır: "Bəzi xəstəliklər anadangəlmə olur və onları vaxtında aşkar etmək lazımdır ki, uşağın gələcək həyatında ciddi görmə problemi yaranmasın. 1 yaşınadək çəpgözlük müayinəsi, 2-3 yaşlarınadək refraksiyalar, məktəbqabağı yaşlarda görmə qabiliyyəti yoxlanılmalı və uşaq məktəbə gedəndən sonra ildə bir dəfə çekap müayinədən keçməlidir".

Əvvəllər yuxarı sinif şagirdlərində rast gəlinən görmə problemləri ilə indi azyaşlı uşaqlar da üzləşirlər. Əvvəllər tədqiqatçılar hesab edirdilər ki, bunun əsas səbəbi uşaqların qapalı məkanlarda çox vaxt keçirməklə gözlərini təbii gün işığından məhrum etmələridir. Bunun nəticəsində göz lazımi qida və vitaminlərlə təmin olunmur. Həkim-oftalmoloq deyib: "Hazırda məktəbli miopatiyası deyilən hallarla tez-tez üzləşirik. Uşaqların böyük əksəriyyətində görmə zəifliyi çoxdur, onlar miopatiya, hipermetriya və yaxud astiqmatizmdən əziyyət çəkirlər. Belə hallarda mütləq ildə bir dəfə həkim müayinəsindən keçmək lazımdır. Məktəbdə yazı lövhəsinə yazılanları görməmək, uzaqda olan yazıları oxuya bilməmək, yaxud yazıb- oxuyarkən müəyyən görmə problemləri ilə üzləşmək, baş ağrısı olması, gözlərin ovuşdurulması, qırpılması və yığılması zamanı mütləq həkimə müraciət etmək lazımdır".

Həkimin verdiyi məlumata görə, məktəb dövrü uzağı və yaxını görmə, astiqmatizm kimi çatışmazlıqların yaranması üçün təhlükəli dövr sayılır, çünki həmin mərhələdə gözlər çox yüklənir. Uşaqların gün ərzində dərs oxuması, yaxın məsafəyə çox baxması gözlərdə problemin yaranmasına səbəb olur. Çünki yaxın məsafəyə baxmaq göz əzələlərinin spazmına, nəticədə isə görmə qabiliyyətinin zəifləməsinə aparıb çıxarır.

## "Neymarın "Barselona"ya qayıtmasını çox istəyərdim"



"Barselona"nın kapitanı Lionel Messi PSJ-də çıxış edən sabiq komanda yoldaşı Neymarla bağlı danışıb. 32 yaşlı hücumçu "Sport"a açıqlamasında braziliyalı futbolçu ilə yenidən birgə çıxış etmək istədiyini deyib:

"Neymarın "Barselona"ya qayıtmasını çox istəyərdim. Düzü, Neymarın geri qayıtması üçün "Barselona"nın hər şeyə cəhd edib-etmədiyini bilmirəm. Həm də PSJ ilə danışıqlar aparmaq da çətindir. Neymar dünyanın ən yaxşı futbolçularından biridir. Neymarla bu günə qədər transfer məsələsi barədə söhbət etməmişəm. Onu almadığımız üçün üzülmədim. Hazırda güclü heyətimiz var. Hər turnirin qalibi ola biləcək səviyyədəyik". Qeyd edək ki, Neymar 2017-ci ildə "Barselona"dan PSJ-yə 222 milyon avroya transfer olunub.

## UEFA: "Qarabağ" azarkeşləri Avropada birincidir



UEFA avrokubokların 2019-2020 mövsümündə qrup mərhələsində mübarizə aparacaq klubların sosial şəbəkələrdəki rəsmi səhifələrində ən aktiv azarkeşləri olan klubları açıqlayıb. Qurumun saytında yer alan məlumatda qeyd olunur ki, bu göstəricidə "Qarabağ" azarkeşləri birincidir.

Avroliqanın qrup mərhələsində yarışacaq Ağdam klubunun izləyicilərinin orta fəallıq göstəricisi 29,9-dur. İkinci sırada 23,7 göstərici ilə Serbiyanın "Srvena Zvezda" kubudur. Hollandiya "Ayaks"ı isə (21.5)3-cü sıradadır.

Sosial şəbəkələrdə ən çox izləyicisi olan klub Madrid "Real"ıdır. İspaniya təmsilçisinin 222 milyon izləyicisi var. Qeyd edək ki, hesabat hazırlanarkən, "Feysbuk", "Instagram", "YouTube" və "Twitter"dəki göstəricilər nəzərə alınıb.

## Azərbaycanın paralimpiyaçı üzgüçüsü dünya çempionatında ikinci medalını qazanıb



Üzgüçülük üzrə Azərbaycanın paralimpiya yığma komandasının üzvü Roman Saleh Londonda keçirilən dünya çempionatında ikinci medalını qazanıb. Azərbaycan Milli Paralimpiya Komitəsindən AZƏRTAC-a bildiriblər ki, idmançımız üzgüçülüyün sərbəst növündə 50 metr məsafəyə üzmə yarışında 24,32 saniyə nəticə ilə bürünc medala sahib olub.

Yarışda ilk iki pillədə Ukrayna təmsilçiləri yer alıblar. Xatırladaq ki, bir neçə gün əvvəl Azərbaycan təmsilçisi dünya çempionatında arxasıüstə üzgüçülük yarışlarında ikinci yeri tutaraq "Tokio 2020" Yay Paralimpiya Oyunlarına lisenziya əldə edib.

## Mucelloda Formula 1 yarışlarını 2025-ci ildə keçirmək niyyətindədirlər



Formula 1 çempionatının İtaliya Qran-Prisinin yaxın illər üçün taleyi həll olunub. Ötən həftə yürüşlərin 2024-cü ilədək Montsada keçiriləcəyi barədə saziş imzalanıb. Lakin Mucelloda "Ferrari"yə məxsus avtodromun rəhbərliyi bu təşəbbüsü 2025-ci ildə ələ keçirmək niyyətindədirlər. AZƏRTAC xəbər verir ki, avtodromun rəhbəri Paolo Poli deyib: "Bizim ilk məqsədimiz "MotoGP" mərhələlərinin keçirilməsini bərpa etməkdir. Lakin 5 ildən sonra biz Formula 1 yürüşlərini Toskanaya gətirmək istərdik.

Digər İtaliya traslarından fərqli olaraq, Mucello dövlət tərəfindən maliyyələşdirilmir. "Ferrari" infrastrukturun keyfiyyətini yaxşılaşdırmaq üçün 2006-cı ildən 2016-cı ilədək böyük sərmayə xərcləyib. Rekord həddi daim artır və biz bu tempi dəstəkləməyə hazırıq".

## Mbappe "Real"a qarşı oynamayacaq



Fransanın "Paris Sen-Jermen" futbol klubunun hücumçusu Kilian Mbappe "Real Madrid"lə oyunda meydana çıxa bilməyəcək. 20 yaşlı fransalı hücumçunun məşqlərə başlamasına baxmayaraq, bir neçə oyunda meydana çıxmayacaq. O, sentyabr 14-də Fransa Liqa 1-də "Strasburq"la görüşdə, dörd gün sonra Çempionlar Liqası çərçivəsində "Real Madrid" klubu ilə qarşılaşmada oynamayacaq. Qeyd edək ki, Mbappe Fransa çempionatının üçüncü turunda "Tuluza" ilə matçda zədələnib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**